QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 140 (5371) 8 **avqust** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# Azərbaycanda baramaçılıq kütləvi xarakter alacaq

*<u>Prezident İlham Əliyev:</u> "Əgər bütün planlarımız həyatda öz əksini tapsa, biz 2025-ci ildə 6 min ton barama istehsal edə bilərik"*




Səh 2

3

**Siyavuş Novruzov: "Azərbaycanda müxalifət qocalıb"**



8

**Müasir tarixdə miqrasiya prosesi haqqında**



16

**Useyn Bolt: Artıq getmək vaxtım çatıb**



# Azərbaycanda baramaçılıq kütləvi xarakter alacaq

## *Prezident İlham Əliyev: “Əgər bütün planlarımız həyatda öz əksini tapsa, biz 2025-ci ildə 6 min ton barama istehsal edə bilərik”*




***Dövlət səviyyəsində həyata keçirilən tədbirlər nəticəsində baramaçılıq sahəsinin də inkişaf edərək, əvvəlki şöhrətinə çatacağı gözlənilir. Nəzərə almaq lazımdır ki, baramaçılıq olduqca qədim tarixə malik gəlirli məşğulluq növlərindən biridir. Tarixi mənbələrə görə, tut ipəkqurdundan ipəyin alınması, hələ eramızdan əvvəl XXVII əsrlərdə məlum olub. Arxeoloji qazıntılar bu sənətin, hətta eramızdan 5 min il əvvəl mövcud olduğunu da göstərir. Baramaqurdu əsasında ipəkçilik qədim zamanlardan Çin, Yaponiya, Cənubi Koreya, Hindistan, İran, Türkiyə, Orta Asiya və Cənubi Qafqaz ölkələrində, həmçinin, digər ərazilərdə inkişaf edib. VII əsrdən ipəkçilik Azərbaycanda inkişaf etməyə başlayıb. Bunun üçün Azərbaycan ərazisinin səth quruluşu, əlverişli iqlim şəraiti, xüsusən, bol günəş işığı, tarixi əmək vərdişləri, tut ağaclarının yetişdirilməsi üçün əlverişli şərait imkan verirdi. XI-XII əsrlərdə Bərdə, Şamaxı, Gəncə, Şəki və digər şəhərlərdə fəaliyyət göstərən ipək istehsalı müəssisələri kəmiyyət və keyfiyyətlərinə görə bütün dünyada şöhrət qazanıb.***

1970-ci ildə Azərbaycanda barama istehsalı 3700 ton səviyyəsində olub. Cəmi 10 il ərzində Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında bu rəqəm 5 min tona çatmışdı. Əfsuslar olsun ki, 1991-ci ildən sonra barama istehsalı kəskin şəkildə aşağı düşmüşdü. 2015-ci ildə cəmi 200 kiloqramdan bir qədər çox barama tədarük edilmişdi. Operativ tədbirlər nəticəsində, 2 il ərzində, bu rəqəm 244 tona çatdırılıb.

Hal-hazırda Azərbaycanda 30 rayonda barama istehsal olunur. Barama istehsalına görə birinci yerdə Zərdab rayonudur - 27 ton. Ondan sonra Füzuli 24, Zaqatala 21, Şəki 18, Ağcabədi təxminən 17, Ağdam 13, Bərdə 12,5, Qax 12,5, Kürdəmir 11,5, Balakən 11 ton.

Göründüyü kimi, ilk 10 rayonda yüksək məhsuldarlıq əldə olunub və əlbəttə ki, potensial da böyükdür. Hazırda isə 3 min kümçü ailəsi baramaçılıqla məşğuldur. Bu baxımdan, dövlət hər şeyi öz üzərinə götürüb, kümçülərə materiallar və subsidiyalar verilir, “Şəki İpək” bütün baramanı qəbul edir.

Azərbaycan Prezidenti İlham Əliyevin verdiyi tapşırıqlara əsasən, gələn il 500 ton barama tədarük edilə bilər: “Əkilən və əkiləcək ağacları nəzərə alsaq, biz 2019-cu ildə ən azı 1000 ton səviyyəsinə qalxa bilərik. Əgər bütün planlarımız həyatda öz əksini tapsa, biz 2025-ci ildə 6 min ton barama istehsal edə bilərik. Beləliklə, sovet vaxtının ən yüksək səviyyəsinə qalxıb, hətta onu keçə də bilərik. Real imkanlar var. Kütləvi şəkildə ağaclar əkilir. Bizdə iki il bundan əvvəl, təqribən 300 mindən bir qədər çox tut ağacı var idi. Son 1-2 il ərzində isə onların sayı 2 milyon 200 minə çatdı. Bütün tinglər dövlət tərəfindən alınır, özü də xaricdən, valyuta ödənilir, baramaqurdu toxumları da gətirilir və ağacəkmə prosesi kütləvi xarakter alıbdır. Dövlət yenə də əsas yükü öz üzərinə götürür və tapşırıq verilmişdir ki, gələn dörd il ərzində əlavə 8 milyon tut tingi əkilsin. İndi bizim 2 milyon 200 min ağacımız var, 8 milyon əlavə əkiləcək”.

Baramaçılığın inkişafı üçün bu il əlavə tədbirlər görülüb. Vaxtilə Qax rayonunda damazlıq stansiyası fəaliyyət göstərirdi. Prezidentin Ehtiyat Fondundan 4,5 milyon manat ayrıldı ki, tezliklə Qax Damazlıq İpəkçilik Stansiyası yenidən qurulsun, ən yüksək avadanlıqla təchiz edilsin və artıq xarici bazarlardan asılılıq aradan götürülsün. “Bizə lazım olan bütün materiallar artıq Azərbaycanda yetişdiriləcək və bu sahəni müstəqil şəkildə inkişaf etdirmək üçün bizdə yaxşı imkanlar olacaqdır” - deyən Prezident İlham Əliyev qeyd edib ki, baramaçılıqda bütün qəbul məntəqələri tezliklə yaradılmalıdır: “Qoy təkliflər versinlər, dövlət bunu öz üzərinə götürməyə hazırdır, hesablasınlar nə qədər vəsait, investisiya lazımdır, başqa hansı işlər görülməlidir. Hesab edirəm ki, bu il və gələn il bütün bölgələrdə qəbul məntəqələri yaradılmalıdır. “Şəki İpəy”in fəaliyyəti daha da genişləndirilməlidir. Məndə olan məlumat ondan ibarətdir ki, hazırda “Şəki İpəy”in istehsal gücü ildə 135 ton xam ipəkdir. Əgər biz öz hədəfimizə çatsaq və 6 min ton barama tədarük olunsa, 6 min ton yaş baramadan 600 tondan çox xam ipək alınacaqdır. İndi isə istehsal gücü 135 tondur. Bu, onu deməyə əsas verir ki, ilk addım olaraq “Şəki İpəy”in imkanları genişləndirilməlidir. Baxmaq lazımdır, əgər dövlət vəsaiti lazımdırsa, biz bunu ayırmağa hazırıq ki, tezliklə kombinatın istehsal gücü artsın və təqribən 3 min ton yaş baramanı emal edə bilsin. Çünki bizdə olan məlumata görə, bu rəqəmə sürətlə çatacağıq. Hazırda “Şəki İpək”də üçnövbəli iş rejimində 1300 ton yaş barama emal oluna bilər. Beləliklə, “Şəki İpəy”in fəaliyyəti bərpa edildi, tam bərpa edilməlidir, genişləndirilməlidir və 3 min ton yaş barama emal olunmalıdır.

Söz yox ki, ipəkçilik, öz növbəsində, xalçaçılığa da güclü təkan verəcək. Azərbaycanda xalçaçılığın inkişafı dövlətin diqqət və qayğısı ilə reallaşdırılır. Belə ki, “Azərxalça” 13 rayonda öz fabriklərini yaradır, onlardan birincisi keçən il Horadiz şəhərində Prezident İlham Əliyevin iştirakı ilə açılıb. Bu il və gələn il daha 12 rayonda yeni xalça fabrikləri açılacaq və o cümlədən, Azərbaycan ipək xalçaların istehsalı üçün bu işləri yerli xammal əsasında qurmalıdır. Ona görə, baramaçılığın inkişafı bir çox istehsalat sahələrinə ciddi təkan verəcək. Ona görə də, bu sahəni sürətlə inkişaf etdirmək üçün Dövlət Proqramı qəbul ediləcək.

***“Səs” Analitik Qrupu***

## *Rəsmi xronika*

Prezident İlham Əliyev “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının 2017-ci il 30 iyun tarixli 765-VQ nömrəli Qanununun tətbiqi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Dövlət qulluqçularının əməkhaqlarının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 iyul tarixli 2934 nömrəli sərəncamında dəyişikliklər edilməsi barədə Sərəncam imzalayıb.

## Siyavuş Novruzov: “Azərbaycanda müxalifət qocalıb”



Azərbaycanda müxalifət qocalıb, yəni eyni şəxslər, eyni simalardır. Bunu Trend-ə Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov deyib.

S.Novruzov bildirib ki, dünya praktikasında belədir ki, siyasi təşkilatlar bir neçə dəfə seçkidə iştirak edirsə və uğur qazana bilmirsə, onların rəhbərliyində və tərkibində geniş dəyişikliklər olur və yaxud da o təşkilat uzun müddət siyasətdən çəkilir:

“Bizdə isə müxalifət partiyaları çalışır ki, hansı formada olursa-olsun, seçki prosesində iştirak etsinlər. Onlar seçki rəsmi şəkildə elan olunandan sonra seçkiyə hazırlaşırlar. Seçkiyə hazırlıq əslində, daha əvvəldən başlamalıdır. Azərbaycanda müxalifət partiyaları ömür boyu seçkilərə hazırlaşmayıblar. Sadəcə olaraq, seçkidə iştirak ediblər. Seçkiyə hazırlıq başqadır, iştirak başqa və o cür iştirak da ancaq məğlubiyyətlə nəticələnə bilər. Çünki müxalifətin sosial bazası, elektoratı, kadr bazası yoxdur, yeni proqramlarla çıxış edə bilmirlər. Bu gün Azərbaycanda ölkə rəhbərliyi, iqtidar tərəfindən problemlər öyrənilir, vaxtında onların həlli tapılır. Cəmiyyət isə mütəmadi olaraq əhalinin güzəranının yaxşılaşdırılması, yeni iş yerlərinin açılması, iqtisadi və sosial islahatların aparılması, abadlıq, quruculuq işlərinin həyata keçirildiyini görür. Müxalifət isə bu günə kimi hər hansı alternativ layihə ortaya qoya bilməyib”.

S.Novruzov bildirib ki, müxalifətin seçkilərdə iştirakının əsas məqsədi pul qazanmaqdır: “Çalışırlar ki, xaricdən vəsait əldə etsinlər. Bu gün xaricdə Azərbaycanı gözü götürməyən qüvvələr, xüsusilə erməni lobbisi var. Azərbaycanda marağı olan bəzi dövlətlər və təşkilatlar, ölkəmizin güclü olmasını istəməyən qüvvələr var və bunlar seçkilərdə bu və ya digər şəkildə pozuculuq işləri həyata keçirməyə və seçki prosesinin üzərinə kölgə salmağa, dövlətimiz haqqında mənfi rəy formalaşdırmağa cəhd edirlər. Həmin qüvvələr isə pozucu cəhdləri bu cür insanlar vasitəsilə həyata keçirməyə çalışırlar”.

## Heydər Əliyev Beynəlxalq Aeroportu yeddi ayda 2 milyondan çox sərnişinə xidmət göstərib



Heydər Əliyev Beynəlxalq Aeroportu bu ilin yeddi ayı ərzində 2 milyondan çox sərnişinə xidmət göstərib. Aeroportun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hava limanı cari ilin yanvar-iyul ayları ərzində təxminən 2,2 milyon sərnişinə xidmət göstərib. Bu da öncəki illərin göstəricilərindən 30 faiz çoxdur.

Hesabat dövründə “Azərbaycan Hava Yolları” (AZAL) milli aviadaşıyıcısının payına 1,25 milyon sərnişin düşüb ki, bunun da 329 min nəfəri daxili reyslərlə daşınıb. Sərnişinlərin 85 faizi beynəlxalq reyslərin payına düşüb. Heydər Əliyev Beynəlxalq Aeroportunun beynəlxalq daşımalarının 49,6 faizi AZAL, 50,4 faizi xarici aviadaşıyıcılar vasitəsilə həyata keçirilib.

Hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu 53 istiqamət üzrə 29 aviaşirkətə xidmət göstərir. Yeddi aviaşirkət - “IrAero”, “Jazeera Airways”, “ZagrosJet”, “Pegas Fly”, “Kish Air”, “Nordwind Airlines” və “Wataniya Airlines” cari ilin yayından uçuşlara başlayıb. Cari ilin sentyabr ayından Azərbaycan ilk lou-kosteri “Buta Airways” uçuşlara başlayacaq.

Heydər Əliyev Beynəlxalq Aeroportunun yeni aerovağzal kompleksi (Terminal 1) 2014-cü ilin aprel ayında istifadəyə verilib. Onun ümumi sahəsi 65 min kvadratmetr təşkil edir.

Dünyada müxtəlif aviaşirkətlər və hava limanları tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin öyrənilməsi üzrə ixtisaslaşan Böyük Britaniyanın nüfuzlu konsaltinq şirkəti “Skytrax” tərəfindən Heydər Əliyev Beynəlxalq Aeroportu 4 ulduza layiq görülüb. Cari ilin mart ayında Heydər Əliyev Beynəlxalq Aeroportu Rusiya və MDB ölkələrinin bütün hava limanları arasında göstərilən xidmət səviyyəsinə görə ən yaxşılar siyahısına başçılıq edərək “Skytrax World Airport Awards” mükafatına layiq görülüb.

## Cocuq Mərcanlı məscidində vəhdət namazı qılınıb



Dövlət qeydiyyatından keçərək Göyçay rayonunda fəaliyyət göstərən bir qrup dini icma sədri və din xadimi Cocuq Mərcanlı məscidini ziyarət edərək orada vəhdət namazı qılıblar.

AZƏRTAC xəbər verir ki, Cocuq Mərcanlı məscidinin ziyarəti Göyçay Rayon İcra Hakimiyyəti və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Ucar bölgəsi üzrə şöbəsinin birgə təşəbbüsü ilə həyata keçirilib.

Prezident İlham Əliyevin göstərişinə əsasən inşa olunmuş Azərbaycan və Şərq memarlığının nadir incilərindən sayılan tarixi Şuşa məscidinin bənzəri olan bu dini ibadətgahda dindarlar vəhdət namazı qılaraq ölkəmizdəki firavanlığın və sülh şəraitinin əbədi olması, eləcə də Qarabağdakı bütün məscidlərimizdə də azan səsinin ucalması üçün dualar ediblər.

## Məhəmməd Cavad Zərif: “Prezident İlham Əliyevin həmrəylik çağırışı təqdirəlayiqdir”



Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə İranda səfərdə olan Azərbaycan nümayəndə heyəti avqustun 7-də bu ölkənin xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə görüşüb.

Görüşdə İran-Azərbaycan münasibətlərinin inkişaf perspektivləri müzakirə edilib. Nəzərə çatdırılıb ki, dünyada cərəyan edən gərgin siyasi proseslər həmrəyliyi zərurətə çevirib. Azərbaycan hər zaman İranın dəstəyini hiss edib. Hər iki ölkənin nümayəndələri beynəlxalq təşkilatlar çərçivəsində uğurla əməkdaşlıq edirlər. “İran Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, suverenliyinə hörmətlə yanaşır”, - deyən Məhəmməd Cavad Zərif qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin islam həmrəyliyi ilə bağlı çağırışları təqdirəlayiqdir. O, hazırkı dövrdə İslam dünyasında həmrəyliyə böyük ehtiyacın olduğunu qeyd edib.

Nazir bildirib ki, İran tərəfi Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun UNESCO-nun baş direktoru vəzifəsinə namizədliyini dəstəkləyir və bu istiqamətdə köməyini əsirgəməyəcək.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə “İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında” mövzusunda keçirilən konfransa verdiyi dəstəyə görə İranın xarici işlər nazirinə təşəkkürünü bildirib. O, eyni mahiyyətli konfransın Prezident İlham Əliyevin qayğısı ilə digər İslam ölkələrində də keçiriləcəyini diqqətə çatdırıb.

Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Milli Məclisin deputatları Eldar İbrahimov, Hikmət Məmmədov, Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov və Rusiyadakı səfiri Polad Bülbüloğlu da iştirak ediblər.

***Rabil Kətanov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tehran***

## Kosta-Rikanın Azərbaycanda səfirliyi açılıb



Avqustun 7-də Xarici İşlər Nazirliyinin (XİN) Dövlət Protokolu İdarəsinin rəisi Pərvin Mirzəzadə Kosta-Rika Respublikasının Azərbaycan Respublikasında yeni təyin olunmuş müvəqqəti işlər vəkili Jairo Lopez Bolanos ilə görüşüb.

XİN-in mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə Jairo Lopez Bolanos müvafiq təyinatı və Kosta-Rikanın Azərbaycanda səfirliyinin açılması ilə əlaqədar olaraq xarici işlər və etiqad naziri Manuel Qonzalez Sanzın nazir Elmar Məmmədyarova ünvanladığı məktubu qarşı tərəfə təqdim edib. Görüşdə Azərbaycan və Kosta-Rika arasında dostluq əlaqələrinin inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Kosta-Rikanın Azərbaycanda səfirliyinin açılması ilə hazırda ölkəmizdə 64 ölkənin səfirliyi, 12 beynəlxalq təşkilatın nümayəndəliyi və 4 baş konsulluq fəaliyyət göstərir.

## Saltuk Düzyol: TANAP ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üzrə işlərin 88 faizi tamamlanıb



Trans-Anadolu qaz boru kəməri (TANAP) ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün işlərin təxminən 88 faizi tamamlanıb. Bunu AZƏRTAC-a eksklüziv müsahibəsində TANAP-ın baş direktoru Saltuk Düzyol deyib.

O bildirib ki, bu il avqustun əvvəlinə TANAP ilə Azərbaycan təbii qazının Türkiyəyə çatdırılması üçün işlərin 87,8 faizi görülüb. Boru kəməri iki fazada inşa olunur. Faza-0, yəni 2018-ci ilin iyununda Türkiyəyə ilk təbii qazın verilməsi üçün görüləcək işlər çərçivəsində 56 düym diametrində və təxminən 1334 kilometr uzunluğundakı boru kəməri ilə yanaşı, 2 ədəd ölçmə stansiyası, bir ədəd ana xətt və bir ədəd kompressor stansiyasının, eləcə də çoxlu sayda blok klapan və digər stansiyaların tikintisi aparılır. Faza-0 üzrə tikinti işləri Türkiyə-Gürcüstan sərhədindən başlayaraq Əskişəhərə qədər uzanan marşrut boyunca həyata keçirilir. 2018-ci il iyun ayının sonuna qədər Faza-0 çərçivəsində işlərin tamamlanması, “Botaş” şirkəti vasitəsilə Türkiyəyə Azərbaycan təbii qazın verilməsi planlaşdırılır. İlkin mərhələdə TANAP-la Türkiyəyə ildə 2 milyard kubmetr qaz veriləcək. Daha sonrakı 3 il ərzində isə bu həcm 6 milyard kubmetrə çatdırılacaq. “Faza-1, yəni 2019-cu ilin sonunda Türkiyədən keçməklə Avropaya təbii qazın verilməsi üçün tamamlanması nəzərdə tutulan işlər isə 48 düym diametrində yerüstü boru kəməri, iki ədəd ölçmə stansiyası və 36 düym diametrindəki qoşa boru xəttindən ibarət olan Dardanel boğazından keçən sualtı hissədir. Avqustun əvvəlinə Faza-1 üzrə işlərin 59,6 faizi tamamlanıb. Bununla da, ümumilikdə TANAP layihəsi çərçivəsində bütün işlərin təxminən 80 faizi icra olunub”, - deyə S.Düzyol əlavə edib.

səs

www.sesqazeti.az

facebook

Ses Media Holding

8 avqust 2017-ci il

# Azərbaycanda tütünçülüyün inkişafı üçün lazım olan bütün şərtlər mövcuddur



***Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən, ölkəmizdə ixracyönümlü və ənənəvi sahələrin dirçəldilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində tütünçülüyün inkişaf etdirilməsi də qarşıya qoyulan məqsədlərdəndir.***

Bu sahənin inkişafında Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" Sərəncamı böyük əhəmiyyət kəsb edir. Sərəncam ölkəmizdə tütünçülüyün inkişafına dövlət dəstəyini gücləndirmək, rəqabət qabiliyyətini yüksəltmək və tütün istehsalı ilə məşğul olan əhalinin sosial rifahını daha da yaxşılaşdırmaq məqsədi daşıyır. Bu da, Azərbaycanda aqrar sektorun ən perspektivli sahələrindən olan tütünçülüyün inkişafı üçün atılan addımların təqdirəlayiq olduğunu göstərir. Azərbaycanda da tütünçülüyün inkişafı üçün lazım olan bütün şərtlər mövcuddur. Bu sektorda həm böyük ənənə və təcrübə, həm keçmiş strukturdan qalma mütəxəssis bazası, emal fabrikləri, ucuz və yerli xammal əldə etmək və nəhayət, daxili və xarici bazara çıxış imkanları var. Tütünçülüyün inkişafına göstərilən diqqət, onu deməyə əsas verir ki, yaxın perspektivdə istehsalı dəfələrlə artırmaq mümkün olacaq. Bu baxımdan, satış bazarını tapmaq, daxili bazarı tam təmin etmək, sonrakı mərhələdə ixrac imkanlarını genişləndirmək qarşıda duran əsas vəzifədir. Bu məqsədlərə nail olmaq üçün dövlətimizin başçısı hökumət qarşısında ciddi vəzifələr qoyub. Çünki tütünçülük post-neft dövründə ölkə iqtisadiyyatının inkişafını təmin edə biləcək əsas sahələrdən sayılır. Qeyd edək ki, Qax rayonu tütünçülüyün inkişafı baxımdan böyük potensiala malik bölgələrimizdəndir. Sovet dövründə respublika üzrə tütün tədarükünün xeyli hissəsi Qax rayonunun payına düşürdü. Respublikada ən çox tütün tədarükü də həmin dövrə - 1986-cı ilə təsadüf edirdi. Elə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qax rayonuna səfəri çərçivəsində tütün qəbulu məntəqəsində yaradılan şəraitlə tanış olması, bir daha sübut etdi ki, hazırda yeni tütün təsərrüfatlarının salınması, tütünçülüyə dövlət qayğısının getdikcə artması bu sahədə çalışanlara stimul olub. Fermerlərlə bağlanan müqavilələrin sayı da bunu təsdiqləyir. Əgər ötən il fermerlər tərəfindən məntəqəyə 30 müraciət daxil olmuşdusa, indi bu göstərici 60-ı keçib. Bu il rayonda 6500-7000 ton yaşıl tütün tədarükü gözlənilir. Artıq məntəqədə tütün qəbuluna başlanıb. Yerli fermerlər müxtəlif tütün sortları yetişdirirlər. Üstünlük isə, əsasən, yüksək məhsuldarlığa malik "Virciniya" sortuna verilir. Sahələrdən toplanan yaşıl tütün məntəqəyə qəbul olunduqdan sonra buradakı 60 kamerada bir həftə ərzində qurudulur. Hazırda müəssisədə 90 nəfər işlə təmin olunub ki, bu da əhalinin sosial şəraitinin yaxşılaşdırılmasına xidmət edir.



***"Səs" Analitik Qrupu***





# İslam həmrəyliyi təkcə müsəlman aləmində deyil, bütün dünyada sülhün və əmin-amanlığın bərpasına kömək edə bilər

## *Bu fikir Tehranda keçirilən “İslam həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında” adlı konfransda səslənib*



***Avqustun 6-da Tehranda “İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında” mövzusunda konfrans keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ili ölkədə “İslam Həmrəyliyi İli” elan etməsi ilə bağlı müvafiq Sərəncamına uyğun olaraq keçirilən konfransı Qafqaz Müsəlmanları İdarəsi (QMİ) Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), İran İslam Respublikasının İslam Məzhəblərinin Yaxınlaşdırılması Beynəlxalq Assosiasiyası, eləcə də Mədəniyyət və İslam Əlaqələri Təşkilatı ilə birgə təşkil edib.***

“İslam Həmrəyliyi İli” çərçivəsində bir neçə xarici ölkədə tədbirlərin keçirilməsi nəzərdə tutulub və “İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında” mövzusundakı konfrans bu qəbildən ilk beynəlxalq tədbirdir. Konfransda İranın nüfuzlu din xadimləri, Xarici İşlər və Mədəniyyət nazirliklərinin nümayəndələri iştirak ediblər.

Konfransı İslam Məzhəblərinin Yaxınlaşdırılması Beynəlxalq Assosiasiyasının baş katibi Ayətullah Möhsün Əraki açaraq hazırkı mürəkkəb tarixi mərhələdə İslam həmrəyliyinin əhəmiyyətindən danışıb. Qeyd edib ki, İslam insanları humanizmə, sülhə və əmin-amanlığa çağıran dindir. Bu dinin böyük tarixi var və bu tarixin öyrənilməsi olduqca vacibdir. Təəssüf ki, son zamanlar İslama qarşı qərəzli mövqe tutulması halları müşahidə edilir və bu dinin adı terrorçuluqla bərabər çəkilir. Bu kimi qərəzli mövqelərin qarşısını almaq üçün İslam dinini düzgün təbliğ etmək və insanlara bu dinin mahiyyətini izah etmək lazımdır.

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə konfransda çıxış edərək bildirib ki, Azərbaycan dünyanın ən tolerant ölkələrindən biridir. Burada müxtəlif dinlərə və məzhəblərə mənsub insanlar mehribanlıq şəraitində yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyev İslam dininə xüsusi əhəmiyyət verərək, 2017-ci ili ölkədə “İslam Həmrəyliyi İli” elan edib. Bu il çərçivəsində Bakıda İslam Həmrəyliyi Oyunları keçirilib. Oyunlarda iştirak edən İslam ölkələri bütün dünyaya həmrəylik nümayiş etdiriblər.

A.Paşazadə qeyd edib ki, Azərbaycan və İran xalqları bir-biri ilə qırılmaz tellərlə bağlıdır. Tarixən formalaşmış dostluq və qardaşlıq münasibətləri, ortaq dini dəyərlər, məzhəb birliyi dövlətlərin və xalqların daha da yaxınlaşmasına zəmin yaradır. Azərbaycanda “İslam Həmrəyliyi İli” qeyd edildiyi bir vaxtda İranda bir araya gəlməyimiz xüsusilə önəmlidir. Zəmanəmizin kabusuna çevrilmiş dini və milli zəmində ekstremizm, ksenofobiya, radikalizm, təkfirçilik, terrorizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı dönəmdə bəşəriyyətə nicat verəcək ideyaların varlığına ehtiyac duyulur. Belə bir məqamda Azərbaycan Prezidenti İlham Əliyev xalqımızın tarixi köklərinə və milli irsinə söykənərək qlobal səviyyədə ümumbəşəri ideyaların carçısı kimi çıxış edir. Prezident İlham Əliyev “Multikulturalizm İli”nin ardınca 2017-ci ili də “İslam Həmrəyliyi İli” elan edərək terrorçuluğa, milli və dini zəmində münaqişələrə həmrəyliklə qalib gəlmək ideyasını ortaya qoyub.

Qeyd olunub ki, Azərbaycan və İran xalqlarının yaxınlaşmasında, hər iki ölkənin əlaqələrini inkişaf etdirmələrində dövlət başçılarının rolu böyükdür. Azərbaycan Prezidenti İlham Əliyev və İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xamenei görüşləri zamanı ictimai həyatın bütün tərəfləri ilə yanaşı, dini və mənəvi əlaqələrin də inkişafının yüksək səviyyəyə çatdırılmasını müzakirə ediblər.

İran Prezidentinin andiçmə mərasiminə xüsusi dəvətlə qatılan Allahşükür Paşazadə çıxışında İran xalqının daha böyük nailiyyətlərə çatacağına inandığını bildirib. O əlavə edib ki, dost, qardaş xalqlarımız arasında dini-mənəvi, mədəni əlaqələrin inkişafı üçün biz mövcud imkanlardan istifadə edirik və bundan sonra da bu istiqamətdə səylərimizi davam etdirəcəyik. İranın mötəbər din xadimi Ayətullah-üzma Həmədaninin ötən il Azərbaycana səfəri bu sahədə əlaqələrin yaxınlığını göstərir. Azərbaycan dünyada nadir məkanlardandır ki, burada dini və milli ayrı-seçkiliyə yol verilmir. Azərbaycanda şiələr və sünnilər eyni məsciddə namaz qılırlar. Azan və bayram vaxtları ilə bağlı təqvim birliyi mövcuddur. Məhərrəm ayının təziyələrində hər iki məzhəbin davamçıları bir arada olurlar. Bu, Azərbaycanın həyat tərzidir, dövlət başçısının vətəndaşlar üçün yaratdığı şəraitin bəhrəsidir. Müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev Təzəpir məscidində Məhəmməd Peyğəmbərin mövludunda iştirak edən, Bibiheybət məscidinə yeni həyat bəxş edən, Azərbaycanda İslam dəyərlərinə müstəsna qiymət verən ilk dövlət başçımız olub. Heydər Əliyevin sayəsində dini abidələr bərpa edilib, yeni məscidlər tikilib xalqın istifadəsinə verilib.

Bu gün Prezident İlham Əliyevin səyləri nəticəsində Təzəpir, Əjdərbəy, İçərişəhər və Şamaxı cümə məscidlərinə yeni həyat bəxş olunub. Azərbaycanın dini memarlıq ənənələrini əks etdirən Heydər məscidi inşa edilib. Prezident İlham Əliyevin təbirincə desək, bizim dinimiz Azərbaycan xalqını qorudu, möhkəmləndirdi, biz buna sadiqik.

A.Paşazadə qeyd edib ki, ölkəmizin ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycan ən son həddədək beynəlxalq hüquq normalarına uyğun ədalətli sülhə nail olmaqda israrlıdır. Beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın ədalətli mövqeyini dəstəklədiyinə görə İran dövlətinə təşəkkür edirik.

İranın keçmiş xarici işlər naziri Mənüçöhr Mottaki çıxış edərək Azərbaycanda İslam dininə yüksək dəyər verildiyinin sevindirici hal olduğunu bildirib. Qeyd olunub ki, hər iki xalqın eyni dinə və məzhəbə mənsub olması əlaqələrin inkişafına böyük təkan verir. Xalqların milli adət-ənənələrinin də eyniliyi dövlətlərin yaxınlaşmasını şərtləndirir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib: “Müasir dünyanın elə bir regionu yoxdur ki, orada ekstremist qruplaşmalar tərəfindən terror aktları törədilməsin. Təəssüflər olsun ki, adətən bu terror aktları İslam pərdəsi altında gizlənən, amma əsl İslama heç bir aidiyyəti olmayan terrorçu dəstələr tərəfindən həyata keçirilir. Ən dəhşətlisi isə odur ki, bu cür hadisələrin qurbanı daha çox müsəlmanlar olmasına baxmayaraq, qınanan da məhz onlar olur. Ümumiyyətlə, din və terrorizm bir-birinə zidd anlayışlardır. Əsl dinin olduğu yerdə ekstremizmə və radikalizmə yer yoxdur.

Dünya xəritəsinə nəzər salsaq görərik ki, müsəlmanlar dünya əhalisinin təqribən 23 faizdən çoxunu təşkil edir. Həmçinin planetimizin quru sahəsinin 19 faizi müsəlman dünyasının ərazisindədir. Olduqca strateji əhəmiyyətə malik olan bu məntəqələr yeraltı və yerüstü sərvətlərlə zəngindir. Hazırda dünyada olan neft ehtiyatlarının təxminən 62, təbii qazın isə 60 faizi müsəlman ölkələrinin payına düşür. Bu isə onu göstərir ki, müsəlman ölkələri dünya siyasətində çox ciddi rol oynayır. Odur ki, İslamın nüfuzdan salınmasında maraqlı olan dairələr var. Halbuki müsəlman ölkələrində terror törədənlərin İslam adı altında fəaliyyət göstərən və bəzi dairələr tərəfindən maliyyələşdirilən qruplar olduğu artıq heç kəsə sirr deyil”.

**Ardı Səh. 6**

# İslam həmrəyliyi təkcə müsəlman aləmində deyil, bütün dünyada sülhün və əmin-amanlığın bərpasına kömək edə bilər

*Bu fikir Tehranda keçirilən "İslam həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında" adlı konfransda səslənib*

**Əvvəli Səh. 5**

M.Qurbanlı bildirib ki, bu ilin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi bizim üçün qürurverici olmaqla yanaşı, dövlətimizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Tarixən Azərbaycanda etnik və dini icmalar arasında möhkəm dözümlülük və dostluq əlaqələri mövcud olub, milli, irqi və dini zəmində heç bir ayrı-seçkilik baş verməyib. Odur ki, bir Şərq dövləti, müsəlman ölkəsi kimi Azərbaycanda "İslam Həmrəyliyi İli"nin elan olunması təkcə İslam dünyası üçün deyil, bütövlükdə, bəşəriyyət üçün böyük önəm daşıyır. Bu istiqamətdə əldə edilmiş ən böyük uğur isə Bakıdakı Heydər məscidində məzhəbindən asılı olmayaraq ölkə müsəlmanlarının bir araya gələrək eyni vaxtda, bir yerdə vəhdət namazı qılmasıdır. Bu hal ənənəyə çevrilərək bu gün digər məscidlərdə də tətbiq olunur.

Vurğulanıb ki, Azərbaycan üçün ən böyük problem olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində biz digər müsəlman ölkələri kimi, İranın da dəstəyini həmişə hiss etmişik. İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin Azərbaycan torpaqlarının işğalı ilə bağlı fikri açıq və konkretdir: "Qarabağ müsəlman torpaqlarıdır. Onun azadlığı uğrunda ölənlər şəhiddirlər".

Azərbaycanın tarixi, əzəli torpağı olan Dağlıq Qarabağ regionu və yeddi ətraf rayonu Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Beynəlxalq hüquq normaları kobudcasına pozulur. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul edilib. Ancaq Ermənistan tərəfi bu qətnamələrə məhəl qoymayaraq işğal etdiyi torpaqlarımızda əcdadlarımızın qəbirlərini, məscidlərimizi, tarixi-mədəni irsimizi dağıdıb. Xüsusilə işğal olunmuş ərazilərdə dini abidələr təhqir obyektinə çevrilib. Ermənistan tərəfindən qəsdən Şuşa və Ağdam məscidlərində İslam dininə görə haram və murdar olan heyvanlar saxlanılır. Münaqişə nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, məcburi köçkün həyatı yaşayır. Komitə sədri vurğulayıb ki, İran ilə Azərbaycanın dostluğu iki xalqın əlaqələrinin inkişafına imkan yaratmaqla yanaşı, ümumilikdə, müsəlman dünyasının bu gün çox ehtiyac duyduğu həmrəyliyə öz töhfəsini verə bilər.

Milli Məclisin komitə sədri, Azərbaycan-İran parlamentlərarası işçi qrupunun sədr müavini Eldar İbrahimov deyib ki, iki ölkə arasında əlaqələrin yüksək səviyyəyə çatmasında ümummilli lider Heydər Əliyevin böyük rolu var. Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olarkən 1992-ci ilin avqust ayında İrana səfər edib və hərtərəfli əməkdaşlıq əlaqələrinin əsasını qoyub. Ulu öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyev İran ilə əlaqələrin inkişafına xüsusi önəm verir. Məhz Azərbaycan Prezidentinin siyasi iradəsi nəticəsində İran ilə Azərbaycan arasındakı əlaqələr bugünkü yüksək səviyyəyə çatıb. Ötən il Azərbaycan Prezidentinin İrana rəsmi səfəri çərçivəsində enerji, gömrük, nəqliyyat, səhiyyə, kənd təsərrüfatı və digər sahələri əhatə edən 11 əməkdaşlıq sənədi imzalanıb. Ötən ilin avqustunda isə İran Prezidenti Həsən Ruhaninin Azərbaycana səfəri dövlətlərimiz arasındakı iqtisadi və siyasi əlaqələrin yüksək perspektivinin olduğunu göstərir.

Azərbaycanda 450 İran şirkəti fəaliyyət göstərir. Azərbaycanda yaradılmış münbit investisiya mühiti İran şirkətlərinə daha geniş imkanlar yaradıb. Parlamentlərarası işçi qruplarının qarşılıqlı səfərləri və əldə edilən nəticələr iki dost və qardaş dövlət arasında bütün sahələr üzrə əməkdaşlığın gələcəkdə də davam edəcəyini deməyə əsas verir.

Azərbaycanın Rusiyadakı səfiri, UNESCO-nun baş direktoru vəzifəsinə namizəd Polad Bülbüloğlu çıxışında bildirib ki, belə konfransların təşkili çox faydalı ola bilər. Bu fayda isə ondan ibarətdir ki, İslam dinini araşdıran alimlər bu dini düzgün şəkildə insanlara çatdırırlar. İran və Azərbaycan xalqlarının eyni dinə mənsubluğu hər iki dövlətin beynəlxalq arenada həmrəylik nümayiş etdirmələrini və nümunə göstərmələrini əsaslandırır.

Öz fəaliyyəti haqqında məlumat verən P.Bülbüloğlu İranın da UNESCO çərçivəsində fəal işlədiyini bildirib və xatırladıb ki, o, qurumun baş direktoru vəzifəsinə yeganə müsəlman namizəddir. P.Bülbüloğlu namizədliyinin İran nümayəndələri tərəfindən dəstəklənəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin deputatı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Məmmədov təbliğat məsələlərində informasiyanın əhəmiyyətindən danışıb. Nəzərə çatdırıb ki, İslam dini haqqında yayılan qərəzli məlumatların əsası yoxdur. İnformasiyadan istifadə edən bəzi siyasi dairələr insanların düşüncəsinə təsir edərək münaqişələr yaradır və öz maraqlarını güdürlər. Bu kimi halların qarşısını almaq üçün alim və mütəfəkkirlər istər mediada, istərsə də sosial şəbəkələrdə fəal olmalı, insanlara həqiqətin nədən ibarət olduğunu izah etməlidirlər.

Konfransda İslam Məzhəblərinin Yaxınlaşdırılması Beynəlxalq Assosiasiyasının Müşahidə Şurasının üzvü, böyük islamşünas alim Axund Rəhbəri, Ayətullah Məhəmməd Təsxiri, Qafqaz Müsəlmanları İdarəsinin Elmi-Dini Şurasının sədri, akademik Vasim Məmmədəliyev, İran İslam Respublikasının Ali Rəhbərinin Azərbaycandakı nümayəndəsi Əli Əkbər Ocaqnejat, Qafqaz Müsəlmanları İdarəsi sədrinin birinci müavini, müfti Salman Musayev, İmam Sadiq Universitetinin müəllimi doktor Dərəxşə və başqaları çıxış edərək İslam həmrəyliyinin əhəmiyyətindən danışıblar.

Sonda İran İslam Respublikasının Ali Dini Rəhbərinin beynəlxalq məsələlər üzrə müavini Ayətullah Möhsün Qumi çıxış edib. O qeyd edib ki, İslam həmrəyliyi yalnız müsəlman aləmində deyil, bütün dünyada sülhün və əmin-amanlığın bərpasına kömək edə bilər. Xalqlar və dövlətlər dünyanın inkişafı prosesində daim əlaqədə olublar. Xalqların arasında düşmənçiliyin yaranması cahillikdən irəli gəlir. Həmrəylik bu münaqişələrin yaranmasının qarşısını ala biləcək bir vasitədir.

Çıxış edənlər Azərbaycan Prezidenti İlham Əliyevin İslam həmrəyliyi ideyasını yüksək qiymətləndiriblər, bu ideyanın çox əhəmiyyətli olduğunu, müasir dünyanın məhz həmrəyliyə ehtiyac duyduğunu bildiriblər. Sonra konfrans iştirakçıları mövzu ətrafında müzakirələr aparıblar. Konfransda Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov da iştirak edib.

***Rabil Kətanov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tehran***

# Əli Laricani: Prezident İlham Əliyevin 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan etməsi mühüm addımdır

***"İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında" mövzusunda keçirilən konfransda iştirak etmək məqsədilə Tehranda səfərdə olan Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin rəhbərlik etdiyi nümayəndə heyəti avqustun 7-də İran İslam Şurası Məclisinin (parlamentin) sədri Əli Laricani ilə görüşüb. Görüşdə İran parlamentinin sədri bildirib ki, İran ilə Azərbaycan tarixi dostluq əlaqələrinə malikdir. Hər iki ölkənin prezidentləri siyasi iradə nümayiş etdirərək münasibətlərin yüksək səviyyəyə çatmasına nail olublar.***



Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ili ölkədə "İslam Həmrəyliyi İli" elan etməsinin mühüm addım olduğunu vurğulayan Ə.Laricani dövlətimizin başçısının bu təşəbbüsünü və Allahşükür Paşazadənin bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirib.

İran parlamentinin sədri "İslam Həmrəyliyi İran-Azərbaycan dostluğu timsalında" mövzusunda konfransın keçirilməsini mütərəqqi hal hesab edərək bunun İslam dünyasında həmrəyliyin formalaşmasına kömək göstərəcəyini diqqətə çatdırıb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını İran parlamentinin sədri Əli Laricaniyə çatdırıb. Şeyxülislam qeyd edib ki, İran-Azərbaycan münasibətləri dövlət başçılarının siyasəti nəticəsində yüksələn xətlə inkişaf edir. Hər iki ölkənin həmrəyliyi İslam dünyasında baş verən təlatümlü hadisələrin aradan qaldırılmasına ciddi yardım edər. Azərbaycan Prezidentinin İslam dünyasına həmrəylik çağırışı müsəlmanların dinc və mehriban şəraitdə yaşamasına əməli töhfəsini verir. Azərbaycanda bütün dini konfessiyaların nümayəndələri bərabər hüquqlara malikdirlər, dinc və mehriban şəraitdə yaşayırlar. Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanli, Milli Məclisin deputatları Eldar İbrahimov, Hikmət Məmmədov, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və İrandakı səfiri Bünyad Hüseynov, İran-Azərbaycan parlamentlərarası işçi qrupunun sədri Salman Xodadadi və başqaları iştirak ediblər.

Söhbət zamanı qeyd olunub ki, bəzi qüvvələr radikal dini cərəyanları maliyyələşdirərək regionda sülhü pozmağa və qeyri-sabit vəziyyət yaradıb öz maraqlarını güdməyə çalışırlar. Lakin qarşılıqlı əlaqələrin tarixi köklərə söykənməsi və xalqların milli dini oxşarlığı, eyni zamanda, İran və Azərbaycan prezidentlərinin səyləri üçüncü tərəfin münasibətlərimizə müdaxiləsinə imkan verməz.

Hazırda İran ilə Azərbaycan enerji, nəqliyyat, kənd təsərrüfatı, turizm, səhiyyə və digər sahələrdə geniş əməkdaşlıq edirlər. Əlaqələrin səmimi xarakter daşıması onun böyük perspektivindən xəbər verir. Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılıb.

***Rabil Kətanov***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Tehran***

# Gəlirli sahə olan üzümçülük Naxçıvanda yeni inkişaf mərhələsini yaşayır







***Qədim Naxçıvanda üzümçülük dərin tarixi köklərə malikdir. Aparılan arxeoloji qazıntılar zamanı tapılan meyvə, xüsusilə üzüm toxumları, eləcə də çaxır hazırlamaq və saxlamaq üçün işlədilən iri küplər göstərir ki, muxtar respublika ərazisində yaşayan insanlar hələ eradan əvvəl bağçılıq və üzümçülüklə məşğul olublar. Qeyd etmək lazımdır ki, yabanı üzüm indi də regionun ərazisində geniş yayılıb. Hələ çox qədimdən burada üzümdən kişmiş, mövüc, bəhməz və sair məhsullar hazırlayaraq qonşu ölkələrə ticarət məqsədi ilə aparıblar.***

## Muxtar respublika ərazisində 120-dən çox üzüm sortu yetişdirilir

Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Yaşar Quliyev AZƏRTAC-ın müxbiri ilə söhbətində bildirdi ki, hazırda muxtar respublika ərazisində 120-dən çox üzüm sortu yetişdirilir. Onlardan yüzə yaxını yalnız muxtar respublikanın ərazisində yayılıb. Həm qidalılıq əhəmiyyətinə, həm də iqtisadi səmərəsinə görə üzüm əkilməsi vacib sayılan kənd təsərrüfatı bitkilərindən biridir. Ən bəsit hesablamalar göstərir ki, bir hektar üzüm sahəsi dənli bitkilərdən 3,9, pambıqdan 2,7, tərəvəz bitkilərindən 1,5, bostan bitkilərindən 7,5, meyvə bağlarından isə 2,6 dəfə artıq gəlir gətirir.

Üzümçülük və şərabçılıq aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Yəni, üzümçülük kənd təsərrüfatı istehsalının çox xərc tələb edən sahəsi olmasına baxmayaraq, 1 hektar sahədən əldə edilən məhsula görə ən yüksək göstəriciyə malikdir.

## Dövlət proqramları üzümçülükdə yeni uğurlara yol açıb

Sovet dönəmində ulu öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanda üzümçülük sürətlə inkişaf etmişdi. Görkəmli dövlət xadiminin 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığı zaman üzüm istehsalı 272 min ton olduğu halda, sonrakı dövrlərdə görülmüş tədbirlər nəticəsində bu rəqəm 2 milyon tonu ötmüşdü. Bu da, öz növbəsində, aqrar-sənaye kompleksinin inkişafına və kənd əhalisinin həyat səviyyəsinin yüksəlməsinə səbəb olmuşdu. Lakin 80-ci illərin ortalarından başlayaraq keçmiş Sovet İttifaqının rəhbərliyi tərəfindən aparılan antialkoqol kampaniyası çərçivəsində Azərbaycanda böyük zəhmət hesabına yaradılmış üzüm bağları məhv edilərək iqtisadiyyata ciddi ziyan vuruldu, insanlar gəlir mənbələrindən məhrum olundular. Yalnız ölkəmiz müstəqillik əldə etdikdən sonra üzümçülüyün yenidən inkişafı üçün əlverişli şərait yaradıldı və bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilməyə başlandı. Belə ki, 2002-ci ildə "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olundu. Üzümçülüyün inkişafı üzrə tədbirlərin də nəzərdə tutulduğu və icrası başa çatan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" kimi mühüm sənədlərin təsdiq edilməsi üzümçülükdə yeni uğurlara yol açdı.

Muxtar respublikanın torpaq-iqlim şəraiti üzümçülüyün daha da inkişaf etdirilərək istehsalın artırılmasına, əhalinin müxtəlif çeşidli, yüksəkkeyfiyyətli süfrə üzümünə, şərabçılıq və digər emal müəssisələrinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsinə imkan verir. Bununla da üzüm və şərabçılıq məhsullarının ixracının artırılmasına, idxalın isə azalmasına şərait yaratmaq imkanları mövcuddur.

Üzüm istehsalı üçün regionun əlverişli torpaq-iqlim şəraiti, üzümün digər bitkiçilik məhsullarına nisbətən yüksək iqtisadi səmərəliliyi, keyfiyyətli süfrə (o cümlədən kişmiş) və texniki üzüm sortlarına olan daxili tələbatın yerli istehsal hesabına ödənilməsi, həmçinin qonşu və digər ölkələrin bazarlarında yüksəkkeyfiyyətli ekoloji təmiz süfrə üzümünə, şərab və digər üzüm emalı məhsullarına yüksək tələbat üzümçülüyün daha da inkişaf etdirilməsini zəruri edir. Məhz buna görə muxtar respublikada bu sahənin inkişaf etdirilməsinə diqqət və maraq getdikcə artmaqdadır.

## Nehrəm kəndində yaradılan üzümçülük təsərrüfatında innovativ texnologiyalar tətbiq olunur

Naxçıvanda yeni üzüm bağlarının salınmasına, eləcə də keçmiş ənənələrdən istifadə etməklə üzümçülüyün inkişafında intensiv becərmə üsullarının tətbiqinə başlanılıb. Nəticədə üzüm sahələrinin genişləndirilməsi, istehsalın həcmi və məhsuldarlığın tədricən artımına nail olunub. Babək rayonunun Nehrəm kəndində yaradılan üzümçülük təsərrüfatı da bu baxımdan diqqəti cəlb edir. Kənddə üzümçülük təsərrüfatının yaradılmasına 2015-ci ildə başlanılıb. Ərazidə yerli sortlarla yanaşı, İtaliya, Fransa, Türkiyə və Özbəkistan mənşəli 10 məhsuldar üzüm sortu əkilib. 150 hektar ərazidə ümumilikdə 326 mindən artıq üzüm tingi əkilib, ərazinin torpaq-iqlim şəraiti nəzərə alınmaqla lazımi aqrotexniki tədbirlər həyata keçirilib. İstehsal prosesində innovativ texnologiyalar tətbiq olunur.

Becərmə və yığım işlərini aparmaq üçün xüsusi texnikalar alınıb, ərazidə inzibati və yardımçı binalar, nasos stansiyası tikilib, 50 kilometrdən çox damcılı suvarma şəbəkəsi qurulub. Gələcəkdə ərazidə soyuducu anbarın inşa olunması da nəzərdə tutulub. Bütün bunlar isə daxili bazarın tələbatını ödəyən və yüksək ixrac potensialına malik keyfiyyətli məhsul istehsalına imkan verəcək.

Təsərrüfatın ərazisində üzümlə yanaşı, digər meyvələrin əkininə də diqqət yetirilir. Hazırda 25 hektar sahədə 50 mindən artıq məhsuldar alma tingi əkilib. Nehrəm Üzümçülük Təsərrüfatında 140 kənd sakini işlə təmin olunub.

Avqustun 5-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Babək rayonunun Nehrəm kəndində yaradılan üzümçülük təsərrüfatına baxıb. Ali Məclisin Sədri kənd təsərrüfatının inkişafında rentabelli işləyən təsərrüfatların yaradılmasının əhəmiyyətini vurğulayıb, üzümçülük təsərrüfatının yaradılmasında əməyi olanlara təşəkkür edib, müvafiq tapşırıq və tövsiyələrini verib.

## İstehsal olunmuş üzüm məhsullarının vaxtlı-vaxtında tədarükü xüsusi əhəmiyyət kəsb edir

Üzümçülüyün davamlı olaraq inkişaf etdirilməsi, keyfiyyətli və ucuz başa gələn yerli üzüm sortlarının yetişdirilməsi Naxçıvanda da tingçilik təsərrüfatlarının yaradılmasını şərtləndirir. Yeni üzüm plantasiyalarının salınması böyük həcmdə uzunmüddətli kapital qoyuluşu tələb etməklə bərabər, barvermə dövrünədək (təxminən, 4-5 il ərzində) əkinə xidmət üçün əlavə maliyyə resurslarına ehtiyac yaradır. Odur ki, mövcud və yeni yaradılacaq üzümçülük təsərrüfatlarının uzunmüddətli maliyyə mənbələri ilə təminatı qarşıda duran ən vacib məsələlərdən biridir.

Muxtar respublikanın Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşı Yaşar Quliyevin sözlərinə görə, istehsal olunmuş üzüm məhsullarının vaxtlı-vaxtında tədarükü xüsusi əhəmiyyət kəsb edir. Bu məqsədlə həmin məhsulların plantasiya-istehlakçı sxemi üzrə reallaşdırılması məsələləri həllivacib məsələlərdəndir. "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" qeyd olunan problemlərin həllinə, üzümçülük və şərabçılığın kompleks inkişafına yönəldilib. Prezident İlham Əliyev 2011-ci il dekabrın 15-də imzaladığı Sərəncam ilə "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"nı təsdiq edib. Bu proqramın icrası ölkəmizdə, o cümlədən muxtar respublikada üzümçülüyün əvvəlki şöhrətinin özünə qaytarılmasına imkan verəcək və beləliklə, kənd təsərrüfatının geniş miqyasda inkişafına, əhalinin rifah halının daha da yaxşılaşmasına şərait yaradacaq.

Dövlət proqramının məqsədi əhalinin təzə və keyfiyyətli süfrə üzümünə olan tələbatının daha dolğun ödənilməsi, şərabçılıq və üzüm emalı müəssisələrinin xammal təminatının yaxşılaşdırılmasından ibarətdir. Qeyd olunan məqsədə nail olmaq üçün süfrə və texniki üzüm sortlarının əkin sahələrinin genişləndirilməsi, yeni üzümlüklərin salınması, tingçilik təsərrüfatlarının yaradılması, mövsümlərarası dövrlərdə əhalinin fasiləsiz olaraq süfrə üzümü ilə təmin edilməsi məqsədilə saxlama kameralarının tikilməsi, üzüm və şərabçılıq məhsulları istehsalı ilə əlaqəli sahələrin inkişafı və digər vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur.

## Üzüm muxtar respublikanın bütün rayonlarında talvar və geniş plantasiyalarda əkilib-becərilə və inkişaf etdirilə bilər

Üzüm muxtar respublikanın bütün rayonlarında talvar və geniş plantasiyalarda əkilib-becərilə və inkişaf etdirilə bilər. Bu bitkinin inkişafına geniş yer verilməsi Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mütəxəssisləri tərəfindən hazırlanmış rayonlar üzrə əkin sahələrinin atlasında da öz əksini tapıb.

***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosu***

# Müasir tarixdə miqrasiya prosesi haqqında

***Öz gərginliyi, ziddiyyətləri, mövcud problemlərinin xarakteri və miqyası baxımından XXI əsrin ilk onilliklərinin beynəlxalq münasibətlər tarixində özünəməxsus yer tutacağı şübhəsizdir. Hər halda, beynəlxalq aləmdə böyük dövlətlərin kəskin geosiyasi, siyasi, iqtisadi, mədəni və digər sahələrdə apardıqları rəqabətdə yeni status almış aktorların - transmilli korporasiyaların, müxtəlif QHT-lərin, mətbuat orqanlarının, terror təşkilatlarının ciddi təsirə malik olan oyunçulara çevrilməsi əvvəlki dövrlərdə indiki qədər açıq və qabarıq şəkildə müşahidə olunmamışdır. Bütün bu prosesin ortaya çıxardığı problemlər isə göz qabağındadır: beynəlxalq münasibətlər sistemində "davranış kodeksi" hesab edilən beynəlxalq hüquq yalnız söz və bəyanat formasında bəzi sənədlərdə görüntü yaratmaq xatirinə qeyd olunur, insanlar və dövlətlər səviyyəsində ədalət anlayışı iflasa uğrayır, böhranlı regionların və ərazi münaqişələrinin sayı durmadan artır, zəngin və kasıb cəmiyyətlər arasındakı fərq getdikcə çoxalır.***



Novruz Məmmədov

Müasir dövrün ziddiyyət palitrasında özünü qabarıq nümayiş etdirən problemlərdən biri də miqrasiya prosesidir. Bu mövzu hazırda dünya siyasətinin gündəmindən düşmək bilmir. "Miqrant böhranı", "qaçqın böhranı" kimi ifadələr isə mətbuatda və siyasi müzakirələrdə ən çox istifadə olunan terminlərdəndir. Xüsusən Yaxın Şərqdə və Afrikada silahlı münaqişələrdən, terror hücumlarından, ağır siyasi-iqtisadi vəziyyətdən əziyyət çəkən çoxlu sayda insan öz yaşayış yerlərini tərk edərək başqa ölkələrə köç etməyə məcbur olurlar.

Bu kütləvi miqrasiyanın əsas istiqaməti isə sosial-iqtisadi baxımdan cəlbedici və coğrafi cəhətdən nisbətən yaxın olan Avropadır. Prosesin miqyasının nə dərəcədə böyük olduğunu izah etmək üçün sadəcə bir faktı xatırlatmaq kifayətdir ki, təkcə 2014-cü il ərzində Avropaya köç edən miqrantların sayı 6 dəfə artaraq 300 mindən 2 milyona çatdı. Rəqəm sonrakı illərdə daha da artıb. Avropadan kənarda məskunlaşanların, yolda aclıqdan və xəstəlikdən ölənlərin, Aralıq dənizində batan, həlak olanların sayı isə bu rəqəmlərdə əks olunmur.

Böhranın digər üzü isə bu insanların köç etdikləri Avropada qarşılaşdıqları vəziyyətdir. Artıq Avropa ölkələrinin miqrantları qəbul etməyə meylli olmaması və yerli əhali arasında dözümsüzlüyün artması fonunda aclıq, məhrumiyyət, şəxsiyyətin alçaldılması, qeyri-insani rəftar miqrantlara münasibətdə adi hala çevrilmişdir. Ola bilsin ki, Avropa İttifaqının (Aİ) bəzi dövlətləri miqrantları qəbul etməməkdə özlərini haqlı sayırlar. Amma bu gün Aİ bir siyasi, iqtisadi, mədəni sistem kimi formalaşmağı qarşısına əsas məqsəd qoyduğu üçün məsuliyyət də, öhdəliklər də müvafiq qaydalara uyğun paylaşılmalıdır.

Tarixin bütün mərhələlərində müntəzəm şəkildə davam etmiş miqrasiya - ilk növbədə, əmək miqrasiyası Qərb elmi ədəbiyyatlarında bütövlükdə mütərəqqi proses kimi təqdim olunur, istənilən cəmiyyətin (əlbəttə, miqrant qəbul edən ölkə nəzərdə tutulur) inkişafının və yenilənməsinin əvəzolunmaz resursu kimi xarakterizə edilir. Demoqrafik böhranla üzləşən ölkələr insan resursları uğrunda fəal rəqabət aparırlar.

Əvvəlki dövrlərdə miqrasiya prosesi indiki səviyyədə olmasa da, geniş vüsət almışdı, lakin bugünkü kimi böyük narazılıq doğurmur, əksinə müsbət qarşılanırdı. İndi isə bir çox hallarda Yaxın Şərq və Afrika ölkələrindən məcburi miqrasiyaya məruz qalan insanlara yardım göstərilməsindən imtina edilir, onların etnik, dini kimlikləri ön plana çıxarılır. Həmçinin bu miqrantların tarixi ölkələrində baş verən silahlı münaqişələr miqrasiyanın yalnız bir səbəbi kimi göstərilir, kütləvi köçlərin əsas səbəbləri isə siyasi qeyri-sabitlik, sosial ədalətsizlik, ağır iqtisadi və ekoloji vəziyyət hesab olunur.

Şübhəsiz ki, bu gün baş verən miqrant axınının səbəblərini anlamaq üçün daha əvvəlki dövrlərdəki bənzər proseslərə nəzər yetirilməli, bir sıra paralellər aparılmalı, fərqlər və ümumi cəhətlər müəyyən edilməlidir. Niyə asiyalılar və afrikalılar son bir neçə əsrdə öz torpaqlarını tərk edən miqrantların əsas hissəsini təşkil edirlər? Onları öz doğma torpaqlarını tərk etməyə vadar edən amillər hansılardır? Zəngin təbii sərvətlərinə baxmayaraq, bu ölkələrdəki həyat səviyyəsi niyə Qərbdən məntiqəsığmaz dərəcədə aşağıdır? Şübhə yoxdur ki, bu istiqamətlərin hərtərəfli təhlili müasir miqrasiya proseslərini izah etmək baxımından faydalı olar.

Bu məsələdə diqqəti cəlb edən əsas məqamlardan biri də odur ki, indi miqrant və qaçqın vəziyyətinə düşmüş insanların ilkin olaraq yaşadıqları ölkələrin əksəriyyətini birləşdirən bir ümumi cəhət onların əvvəllər Qərbin müstəmləkəsi olmalarıdır. Qeyd etmək lazımdır ki, Yaxın Şərqdəki silahlı münaqişələr, miqrasiya böhranı və beynəlxalq sistemdə bütün bunlardan irəli gələn qeyri-sabitlik siyasi və akademik dairələrdə müstəmləkəçiliklə bağlı yeni müzakirələrə təkan vermişdir.

## Müstəmləkəçilik siyasəti və miqrasiya proseslərinin mərhələləri haqqında

Bu gün Qərb ölkələrinin siyasi, iqtisadi, sosial, elmi, texnoloji cəhətdən digər ölkələrə münasibətdə üstün mövqedə olduqları şübhəsizdir. Belə görünür ki, onlar uzun illər ərzində formalaşmış bu üstünlüklərini xeyli müddət qoruyub saxlamaq imkanına malikdirlər. Hazırda dünyada baş verən proseslərin də bu istiqamətdə davam etdiyi aşkardır. Siyasi-iqtisadi konyunktur zənginlərlə kasıblar arasında uçurumun daha da dərinləşməsinə şərait yaradır. Təsadüfi deyil ki, bir sıra ölkələrdə qloballaşma da müstəmləkəçiliyin müasir formasına xidmət kimi xarakterizə olunur.

Təbii olaraq, belə bir sual yaranır: Qərb bu üstünlüyünü nəyin hesabına əldə edib? Çünki tarixin müəyyən dövründə Qərbin Şərqdən, xüsusən İslam aləmindən hər cəhətdən geri qaldığı məlumdur. Məsələn, bəşəriyyətin inkişafında həlledici rol oynamış elmi kəşflər, ixtiralar ilk olaraq məhz Şərqdə edilsə də, bir neçə əsr sonra Qərbdə tətbiq edilməyə başlanmışdır. XVI əsrə qədər Avropanın hansısa sahədə üstünlüyündən danışmaq çətindir. Lakin etiraf etmək lazımdır ki, məhz həmin ixtiraların mənimsənilməsi və tətbiqi nəticəsində Avropa ölkələri cəmiyyətin həyatında sosial-iqtisadi inqilab etməyə müvəffəq olmuşlar. Müstəmləkəçilik siyasəti isə əldə olunmuş bu nailiyyətlərin daha da inkişafına xidmət etmişdir.

Digər maraq doğuran məqam budur ki, görəsən Britaniyanın, Fransanın, İspaniyanın, Portuqaliyanın və digər ölkələrin bir neçə yüz il müstəmləkəsi olmuş ölkələrdə nə üçün bu gün də vəziyyət acınacaqlıdır. Nə üçün bu ölkələr ötən əsrlər ərzində nəzərəçarpacaq inkişafa nail ola bilməyiblər? Səbəbi budur ki, onları müstəmləkədə saxlayan Avropa ölkələri, həmçinin bu sərvətlər hesabına inkişafa nail olublar. Bu gün Avropanın muzeylərində və meydanlarında yerləşdirilmiş zəngin tarixi-mədəni irs nümunələrinin əksəriyyətinin Asiya və Afrika ölkələrinə məxsus olduğu danılmazdır. Lakin təəssüf doğuran budur ki, Avropa ölkələri müstəmləkələri idarə etdikləri illər ərzində yalnız öz maraqlarını güdüblər və həmin ölkələrin sonrakı müstəqillik illərində öz inkişaflarını təmin edəcək zəruri amillərin formalaşmasına nəinki cəhd etməyiblər, hətta imkan belə verməyiblər. Şübhəsiz ki, keçmiş müstəmləkələrin bu gün kasıb vəziyyətdə olmasının səbəblərini araşdırarkən, bu məqamın nə dərəcədə mühüm əhəmiyyət daşımasını sübut etməyə ehtiyac yoxdur.

Miqrasiya proseslərinin tarixini öyrənərkən təbii fəlakətlərin (zəlzələ, quraqlıq, subasma və s.) və müharibələrin rolunun və təsirinin araşdırılması da maraqlıdır. Lakin bizim əsas məqsədimiz miqrasiya proseslərinin müstəmləkəçiliklə bağlı dövrünü araşdırmaq, miqrasiya proseslərinin imperiya maraqlarına, geosiyasi maraqlara tabe etdirilərək həyata keçirilməsi üzərində dayanmaqdır.

Miqrasiya prosesini müstəmləkəçilik siyasəti çərçivəsində nəzərdən keçirərkən, bu prosesin miqyas və xarakter baxımından bir-birindən fərqlənən üç mərhələsini xüsusi qeyd etmək lazımdır. Mərhələləri bir-birinə bağlayan ümumi cəhət isə prosesin eyni məqsədin reallaşdırılmasına xidmət etməyə yönəldilməsindən ibarətdir.

Müstəmləkə sisteminin yarandığı XVI əsrdən XX əsrin ortalarına kimi davam edən birinci mərhələ miqrasiya axınının kütləviliyi baxımından deyil, daha çox prosesin özünə təkan verəcək tendensiyaların formalaşması baxımından diqqəti cəlb edir. Belə ki, Asiya, Afrika və Latın Amerikası ölkələrinin işğalından sonra siyasi, iqtisadi və hərbi metodlarla müstəmləkələrin təbii və insan resurslarının istismarı geniş vüsət aldı. Bu da Qərb ölkələrində siyasi, iqtisadi, hərbi, elmi və mədəni inkişafı stimullaşdıran böyük həcmdə kapitalın cəmləşməsinə, müstəmləkələrin isə siyasi və iqtisadi inkişafının dayanmasına gətirib çıxardı. Aydın məsələdir ki, geniş əraziləri zəbt etdikdən sonra onları yalnız metropoliyanın öz imkanları hesabına əldə saxlamaq olduqca çətindir. Məhz bu məqamdan etibarən müstəmləkəçilik maraqlarına xidmət edən miqrasiya prosesinin məqsədyönlü istiqamətdə aparılmasının əsası qoyulub. Bu dövrdə miqrasiya prosesi iki məqsədə xidmət edib. Birincisi, müstəmləkə əhalisindən Avropa və Amerikada ən aşağı səviyyəli işlərdə qul əməyi kimi istifadə olunması, ikincisi və daha vacibi isə öz dilini, mədəniyyətini və idarəçilik sistemini həmin əhaliyə aşılamaq və qəbul etdirmək üçün onların bir növ metropoliya ilə müstəmləkə arasında körpü rolunu oynamasını təmin etmək və bununla da ələ keçirilmiş torpaqlar üzərində nəzarəti qoruyub saxlamaq. Müxtəlif dövrlərdə keçmiş müstəmləkələrin iştirakı ilə yaradılmış və hazırda da fəaliyyət göstərən Millətlər Birliyi (Britaniya), Frankofoniya Beynəlxalq Təşkilatı (Fransa), İbero-Amerikan Dövlətləri Təşkilatı (İspaniya), Portuqal Dilli Ölkələrin Birliyi (Portuqaliya) kimi qurum və təşkilatlar, əslində, tətbiq olunan mexanizmlərin müstəmləkəçilik maraqları baxımından nə dərəcədə əhəmiyyətli olduğunun bir göstəricisidir.

İkinci mərhələ soyuq müharibə illərini əhatə edir. II Dünya Müharibəsinin başa çatması müstəmləkə sisteminin dağılması və yeni beynəlxalq münasibətlər sisteminin formalaşması ilə nəticələnsə də, Qərbin öz keçmiş müstəmləkələrinə baxışlarında mahiyyətcə dəyişiklik baş vermədi. Yeni müstəqillik qazanmış ölkələrin Qərbdə "Üçüncü dünya ölkələri" adlandırılması da bunun sübutudur. Bu ölkələrlə əlaqələr-

# Müasir tarixdə miqrasiya prosesi haqqında

də tətbiq olunan yeni mexanizmlər yenə də Qərbin siyasi və iqtisadi maraqlarının təmin olunması prinsipi üzərində qurulmuşdu. Sadəcə neo-müstəmləkəçilik sistemi keçmiş müstəmləkələrin zənginliklərinin kortəbii şəkildə qarət olunmasına deyil, ilk baxışdan bu ölkələr üçün cəlbedici görünən, lakin əslində onların asılılığını artıran yeni siyasi və iqtisadi münasibətlərə, transmilli şirkətlər vasitəsilə xammal və əmək resurslarının istismarına əsaslanırdı.

Bu dövrdə daha geniş xarakter alan miqrasiya da mahiyyət etibarilə keçmiş müstəmləkələr üzərində nəzarəti qoruyub saxlamağa hesablanmış proses idi. İkinci Dünya Müharibəsindən sonra Avropa ölkələrinin sürətli iqtisadi inkişafı daxili işçi qüvvəsini bir neçə dəfə üstələyirdi. Digər tərəfdən isə daxildə əhalinin yaşlaşması və qitədən kənar ölkələrdə ucuz işçi qüvvəsinin bolluğu Qərb dövlətlərinin "Üçüncü dünya ölkələri"ndən miqrasiyanı təşviq etməsini vacib edirdi. Maraqlıdır ki, bu zaman hər bir Avropa ölkəsi yalnız öz keçmiş müstəmləkələrindən olan miqrantlara üstünlük verirdilər. Məhz miqrantların vasitəsilə metropoliya və müstəmləkə arasında mədəni körpü qorunub saxlanılmalı idi ki, bu da həmin ölkə üzərində siyasi və iqtisadi nəzarəti daha da asanlaşdırırdı.

Avropada multikulturalizm anlayışının bu dövrdə siyasi leksikona daxil edilməsi də təsadüfi deyil. İlk baxışdan miqrantların "yeni vətənlərində" onların dəyərlərinə, mədəni-dini fərqliliklərinə hörmət kimi görünən bu ideologiya əslində bir tərəfdən onların assimilyasiyasını və Avropa dəyərlərinə inteqrasiyasını, digər tərəfdən isə öz ölkələrinə geri qayıtdıqdan sonra mədəni körpünü təmin edən vasitə kimi istifadəsini nəzərdə tuturdu. Bu da əslində Qərb multikulturalizminin yalnız öz dəyərlərini universal norma kimi qəbul edən və müstəmləkəçilik maraqlarına xidmət göstərən məfhum olduğunu sübut edir.

SSRİ və Varşava Müqaviləsi Təşkilatının dağılması ilə Qərbin soyuq müharibədə qələbəsindən sonrakı dövr üçüncü mərhələni təşkil edir. Bu dövrdə faktiki dominant gücə çevrilən və heç bir ciddi rəqiblə qarşılaşmayan Qərb bu mərhələdən etibarən öz geosiyasi və iqtisadi maraqlarını tam şəkildə reallaşdırmaq, bütün dünyanın insan və təbii resursları üzərində total nəzarəti təmin etmək üçün səylərini əsirgəmədi.

Yeni beynəlxalq münasibətlər sistemində daha çox arxa planda və ABŞ-ın kölgəsində qalan Avropa isə bu yeni sistemdən elə ABŞ qədər faydalanmış oldu. Varşava Müqaviləsindən çıxmış Şərqi Avropa ölkələri Avropanın öz sərhədlərini genişləndirməyə və nəticə etibarilə iqtisadi mənfəətlərini artırmağa imkan yaratdı. Avropanın güclü inkişafı da bu dövrə təsadüf edir. Yeni bazarlar və Avropa ilə eyni dəyərləri "paylaşmalı olan" ölkələrdən gələn ucuz işçi qüvvəsi bu inkişafın əsasını təşkil edirdi. Şərqi Avropa ölkələrinə "inklüziv xristian klubu"na qoşulmaq şansı təqdim olunanda heç kim bu ölkələrin yeni inteqrasiya modelinə nə dərəcədə hazır olması sualını ortaya qoymadı. Sonrakı proseslər bu hazırlığa heç ehtiyacın da olmadığını göstərdi. İqtisadiyyatın liberallaşdırılması adı altında Qərb kapitalı tərəfindən Şərqi Avropanın sənaye sahələrinin özəlləşdirilməsi bu ölkələrin iqtisadiyyatlarının məqsədyönlü şəkildə dağıdılmasına və rəqabətin aradan qaldırılmasına imkan yaratdı. Az inkişaf etmiş yeni üzvlərin milli iqtisadiyyatı daha güclülərlə azad və qeyri-bərabər rəqabətə açıq elan edildi və elə bunun nəticəsində həmin ölkələrin bir çox mühüm istehsal sahələri iflasa uğradı. Yeni üzvlər primitiv olaraq ixrac bazarı rolunu oynamağa məcbur oldular. Bu dövrdə baş vermiş miqrasiya isə çoxlarının diqqətini cəlb etmədi. Aİ daxilində işçi qüvvəsinin sərbəst hərəkəti mütərəqqi ideya kimi təqdim olundu. Əslində isə Şərqi Avropa ölkələrində daxili istehsalın tənəzzülündən qaynaqlanan işsizlik problemindən çıxış yolu bu ölkələrin əmək qüvvəsinin ən təhsilli və ixtisaslı hissəsinin daha yaxşı yaşamaq və iş imkanı əldə etmək üçün Qərbi Avropa ölkələrinə köç etməsi ilə tapıldı. Onların sayı yüz minlərlə ölçülürdü.

Nəticə etibarilə, miqrasiya prosesinin yuxarıda qeyd olunan hər üç mərhələsinin bir sıra parametrlərə görə ümumi xarakterə malik olduğu müşahidə edilməkdədir. Hər üç mərhələdə proseslər Avropa dövlətləri tərəfindən onların müəyyən etdiyi qaydalar, çərçivə və saya əsasən idarə olunurdu. Necə adlandırılmasından asılı olmayaraq, başlıca məqsəd Avropanın siyasi və iqtisadi maraqlarının təmin olunması idi.

Amma XXI əsrdə baş verən proseslər Qərbin müəyyən hesablamalarının yanlış olduğunu, bu dövrə qədər aparılan siyasətin davam etdirilməsinin və əvvəlki dövrlərdə olduğu kimi, siyasi, geosiyasi və iqtisadi maraqlara xidmət etməsinin mümkün olmadığını göstərdi.

## Geosiyasi gərginliklər fonunda miqrasiya: çıxış yolu varmı?

2015-ci il artıq "Xalqların ikinci böyük köçü adlandırılır". Bu da təəccüblü deyil. Yaxın Şərq və Afrikada öz evlərini tərk etməyə məcbur olan insanların sayı həqiqətən böyükdür və Avropaya köç edənlərin sayı artmaqda davam edir. Budəfəki miqrasiyanın əvvəlkilərdən fərqi isə bundan ibarətdir ki, artıq indiki prosesi Qərb öz maraqlarına uyğun idarə edə bilmir və bu proses müstəmləkəçilik maraqlarının reallaşmasına yardım etmir.

Elmi ədəbiyyatlarda miqrasiyanın siyasi və iqtisadi formaları müəyyən edilib. Siyasi miqrasiyanın səbəbləri sırasında siyasi rejimlərin süqutu, hərbi münaqişələr və s. göstərilir. Lakin bu cür təsnifat kifayət qədər dar çərçivəni əhatə edir və müasir dövrdə baş verən miqrasiya proseslərinin mahiyyətini tam şəkildə əks etdirmir. İlkin səbəbləri baxımından hazırkı kütləvi miqrasiyanı "geosiyasi miqrasiya" kimi xarakterizə etmək daha doğru olardı. Belə ki, İraq, Liviya və Əfqanıstan kimi ölkələrdə həyata keçirilən rejim dəyişikliyi, "Ərəb baharı" prosesi, terrorçu qrupların fəaliyyəti nəticəsində geniş vüsət almış miqrasiya daha geniş regionda ciddi dəyişikliklərə yol açmaq imkanına malik oldu.

Hazırda avropalı liderlər situasiyanı sabitləşdirmək üçün müxtəlif proqramlar işləyib hazırlayırlar, lakin bunlar müvəqqəti xarakter daşıyır. Miqrantların gələcək taleyi ilə bağlı dəqiq fikir yoxdur. Onları cəmiyyətə inteqrasiya etmək mümkündürmü? Yoxsa müharibə nəticəsində dağılmış ölkələrinə geri qaytarılmalıdırlar? Bu, insan hüquqları ideallarına nə dərəcədə uyğundur?

Avropa ölkələrinin yeni kütləvi miqrasiya qarşısında aciz qalması onların bu vəziyyətə hazır olmadığını göstərir. Hər halda, yanlış siyasətin bu dərəcədə əks effekt verəcəyi gözlənilmirdi. Tərtib olunan proqramlar isə prosesin səbəblərini deyil, nəticələrini aradan qaldırmağa yönəldiyindən uğur qazanmaq şansı yüksək deyil. Halbuki, artıq bir neçə il öncədən vəziyyətin bu cür olacağı ehtimal edilə bilərdi. Miqrasiyanı öz mənfəətlərinə uyğun idarə olunan, demoqrafik problemləri aradan qaldıracaq müvəqqəti xarakterli proses kimi görən avropalılar sonradan bu siyasətin bir sıra fəsadlarının olacağını anladılar.

Bu dövrdə ən çox diqqəti cəlb edən məqamlardan biri Avropada irəli sürülən multikulturalizm ideyasının iflasa uğramasının islamofobiya meyllərinin güclənməsi ilə paralel şəkildə getməsi oldu. Belə ki, miqrantların sonrakı nəsillərinin əvvəlkilərdən fərqli olaraq öz mədəni-dini dəyərlərini qoruyub saxlamağa israr etməsi Avropanın təbliğ etdiyi "universal dəyərlər" konsepsiyası ilə üst-üstə düşmürdü. İqtisadi böhran şəraitində həyat səviyyəsinin aşağı düşməsi, yoxsulluq və işsizliyin səviyyəsinin yüksəlməsi isə avropalıların miqrantlara qarşı dözümsüzlüyünün və cəmiyyət daxilində gərginliyin artmasına gətirib çıxardı. Artıq 2010-2011-ci illərdən başlayaraq Fransa, Almaniya və Birləşmiş Krallığın rəhbərləri bir qədər əvvəl əllərində bayraq etdikləri multikulturalizmin ümidləri doğrultmadığını bəyan etməyə başladılar. Bu isə onu göstərir ki, əslində Avropanın özünün bəyan etdiyi liberal, demokratik dəyərlər, insan hüquqları prinsipləri yalnız özləri üçün nəzərdə tutulub və onların təbliğ etdiyi multikulturalizm isə geosiyasi təməllərə əsaslanmışdı. Bu həqiqət danılmazdır. Avropanın özünün təzyiq mexanizminə çevrilmiş "universal dəyərlər"in bu qədər geniş təbliği o zaman uğurlu olardı ki, beynəlxalq münasibətlərdə ədalət prinsipi, beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının qətnamələri kənara atılmazdı. Son 30 ilə yaxın dövrün volyuntarizmi, "biz necə istəyirik, elə də olmalıdır" prinsipi bu gün dünyada müşahidə olunan görünməmiş gərginliyin əsas səbəbidir.

Miqrantların əksəriyyətinin İslam dininə etiqad etməsi və Avropada müsəlmanların sayının kəskin artması Avropanın öz xristian dəyərlərini itirmək qorxusunu gücləndirir. Qərbin dünyanın müxtəlif regionlarında həyata keçirdiyi ssenarilərin birbaşa nəticəsi olan terror qruplaşmalarının Avropada törətdikləri terror aktları da islamofobiya meyllərinin güclənməsinə səbəb olub. Nəticədə isə öz təbliğatlarını miqrantlar və müsəlmanlar əleyhinə şüarlar üzərində quran, İslamı təhlükəli ideologiya adlandıran ultra millətçi qüvvələrin əhali arasındakı nüfuzu gündən-günə artmaqdadır ki, bu da "liberal Avropa" üçün başqa bir təhlükə mənbəyidir.

Beləliklə, bugünkü miqrasiya prosesi yalnız Avropanın coğrafi sərhədləri və sosial-iqtisadi vəziyyəti çərçivəsində nəzərdən keçirilməməlidir. Bu proses həm də Qərbin bütün dünya üçün universal anlayışlar kimi təqdim etməyə çalışdığı demokratiya, insan hüquqları prinsiplərinin etibarlılığı üçün də olduqca aktualdır. Miqrantların gələcək taleyi ilə bağlı qəbul olunan qərarlar Qərbin özünün bəyan etdiyi dəyərlərə sadiqliyi baxımından bir sınaqdır.

Miqrasiya prosesi bu gün beynəlxalq aləmin və beynəlxalq birliyin mühüm problemlərindən biridir. Bu problemin yaranmasına səbəb olan digər amil isə müxtəlif münaqişələrin illərlə həll olunmayaraq qalması, həmçinin bir sıra ölkələrdə sabitliyin pozulması və daha çox kənardan idarə olunan daxili çəkişmələrin baş verməsidir. Aparılan müşahidələr göstərir ki, son 20-30 ildə bu problemlərin həlli istiqamətində lazımi addımlar atılmayıb, əksinə vəziyyət getdikcə pisləşib, hətta gərginlik qlobal xarakter alaraq böyük, qarşısıalınmaz təhlükəyə çevrilib.

Təəssüflər olsun ki, mühüm problemlərin yaranmasında da, onların aradan qaldırılmasında da əsas aktorlar beynəlxalq birliyin aparıcı dövlətləri, onların nəzarətində olan beynəlxalq və regional qurumlar, ya da yaradılaraq onların nəzarətinə verilən təsisatlardır. Əsas məqsəd isə siyasi, geosiyasi, iqtisadi maraqlarının təmin olunmasıdır.

Vəziyyət nə qədər mürəkkəb olsa da, çıxış yolu kifayət qədər aydındır. Artıq beynəlxalq birlikdə gedən proseslərdə dünyaya köhnə "müstəmləkə eynəyi" ilə baxmaqdan imtina etməyin, ədalət anlayışını öz maraqları çərçivəsində həyata keçirməyə çalışmaqdan əl çəkməyin vaxtı çatmışdır. Şübhəsiz, bütün problemlərin kökündə məhz bu amillər dayanır. Qərbin Yaxın Şərq və Afrika kimi regionlarda əsrlər boyu həyata keçirdiyi siyasəti təftiş edərək ona ədalətli yanaşma nümayiş etdirməsi və məsuliyyəti öz üzərinə götürməsi yaxşı başlanğıc olardı. Lakin etiraf etmək lazımdır ki, müasir dövrdə bu cür yanaşma daha çox idealist düşüncə tərzinə xasdır. Ədalətli yanaşma isə beynəlxalq hüququn aliliyinə, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə, insan hüquqları prinsiplərinə həqiqətən hörmət edildiyi güclü beynəlxalq münasibətlər sistemində mümkündür.

Deyəsən fransız filosofu Mişel Onfrenin öz fikirlərində haqlı olduğunu qəbul etmək məcburiyyətində qalacağıq: "Misir piramidaları, yunan məbədləri, Roma forumları (müəllif daha qədim dövrə ekskurs edə bilərdi) haqqında hamının məlumatı var. Belə ki, qədim sivilizasiyaların izlərini araşdırarkən, onları süquta aparan səbəblər aydın müşahidə olunur. Görünür, 2000 yaşı olan yəhudi-xristian sivilizasiyası bu qaydadan kənarda qalmayacaq və onun taleyi əvvəlkilər kimi olacaq".



# Azərbaycanda tütünçülük - perspektivlər, hədəflər

## Seymur Səfərli: Tütünçülük yeni iş yerlərinin yaradılması, əhalinin gəlirlərinin yüksəldilməsi və ixrac potensialının artırılmasında geniş perspektivlərə malikdir

***Qaxda keçirilən respublika müşavirəsində ölkəmizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində kənd təsərrüfatı məhsullarının istehsalının artırılması, xüsusilə ixracyönümlü sahələrin, o cümlədən Azərbaycanda kənd təsərrüfatının böyük potensiala malik, strateji əhəmiyyətli, iqtisadi cəhətdən səmərəli, ənənəvi və əməktutumlu istehsal sahələrindən olan tütünçülüyün dirçəldilməsi bir daha prioritet vəzifələrdən biri kimi vurğulanıb, bu sahənin inkişafı ilə əlaqədar zəruri tədbirlərin həyata keçirilməsi barədə aidiyyəti dövlət qurumlarına müvafiq tapşırıqlar verilib.***

Prezident İlham Əliyev müşavirədəki nitqində bildirib ki, 2021-ci ilə qədər ölkəmizdə tütün istehsalı üçün əkin sahələri iki dəfə genişləndirilməlidir. İndiki 3200 hektardan təqribən 6 min hektara çatdırılmalıdır. Buna imkan var və aidiyyəti qurumlar bu işlərlə ciddi məşğul olmalıdır. Dövlətimizin başçısı qeyd edib ki, belə olan halda, orta məhsuldarlıq 2 ton götürülərsə, hər il Azərbaycanda 12 min ton quru tütün istehsal olunacaq və bu, ölkəyə böyük xeyir gətirəcək, valyuta xaricə getməyəcək, əksinə, ixrac imkanları yaranacaq.

Göründüyü kimi, ölkəmizdə ənənəvi və ixracyönümlü sahələrdən olan tütünçülükdə hədəflər müəyyən olunub, perspektivlər ətraflı nəzərdən keçirilib. AZƏRTAC Kənd Təsərrüfatı Nazirliyinin Bitkiçilik şöbəsinin müdir müavini Seymur Səfərlinin tütünçülükdə əsas hədəflər və perspektivlər barədə qeydlərini təqdim edir:

Ölkəyə valyuta daxilolmalarında xüsusi çəkiyə malik tütünçülüyün inkişafına ciddi dövlət dəstəyinin göstərilməsi, rayonlarda tütünçülüyün sürətlə inkişaf etdirilməsi ilə bağlı verilən tapşırıqların icrası ilə əlaqədar olaraq müvafiq tədbirlərin həyata keçirilməsinə başlanılıb. Tütün iqtisadi əhəmiyyətinə görə Azərbaycanın ikinci texniki bitkisi hesab olunur. Tütünçülük iqtisadi cəhətdən səmərəli, yeni iş yerlərinin yaradılması və əhalinin gəlirlərinin yüksəldilməsində əhəmiyyətli sahələrdən biri kimi geniş inkişaf perspektivlərinə malikdir.

Keçmiş SSRİ dövründə Azərbaycanda geniş təşəkkül tapmış və ölkənin kənd təsərrüfatı sahəsində əhəmiyyətli yerə malik olmuş aqrar sahələrdən biri də tütünçülük idi. Respublika tütün istehsalına görə, Moldova və Ukraynadan sonra 3-cü yeri tuturdu.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu aqrar siyasət nəticəsində Azərbaycanda tütünçülük çox sürətlə inkişaf etdirilmiş, bu sahənin böyük sənaye potensialı yaradılmışdır. 1986-cı ildə ölkəmizdə rekord miqdarda 16,7 min hektar sahədən 65 min ton tütün istehsal olunmuşdur. Əlverişli torpaq-iqlim şəraitinə malik olan respublikamızın şimal rayonları olan Qax, Balakən, Şəki və digər münbit torpaq sahələri olan ərazilərdə tütün bitkiləri əkilirdi. Tütün istehsalı yüksək rentabelliyə malik olduğuna görə sonradan onun istehsalı Şəki-Zaqatala zonasından Lerik-Yardımlı, eyni zamanda, ölkənin qərbinə kimi genişləndirildi və 21 rayonda tütünçülüyün inkişafına təkan verildi.

Respublikanın təbii-iqlim şəraiti 1 hektar sahədən 35-37 sentner keyfiyyətli tütün alınmasına imkan verir. Xüsusilə yaz və payız aylarında iqlimin isti olması yüksəkkeyfiyyətli məhsul alınması üçün əlverişlidir. Ən keyfiyyətli məhsul Şəki-Zaqatala bölgəsində və Naxçıvan Muxtar Respublikasında əldə olunur.

Lakin müstəqilliyin ilk illərində bütün sahələrdə baş vermiş tənəzzül tütünçülükdə də özünü göstərmiş, tütün əkini və istehsalı xeyli azalmışdır. 2015-ci ildə bu bitkinin əkin sahəsi azalaraq 1,4 min hektara, məhsul istehsal isə 3,5 min tona qədər düşmüşdür.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında tütünçülüyün inkişaf etdirilməsinə dövlət dəstəyi haqqında" 2016-cı il 5 oktyabr tarixli Sərəncamına əsasən istehsalçılara emal müəssisələrinə satdıqları xam pambığın hər 1 kiloqramına (kondisiya çəkisində) görə 0,1 manat, quru tütünün hər 1 kiloqramına, yaş tütünün isə hər 10 kiloqramına görə 0,05 manat məbləğində subsidiyanın müəyyənləşdirilməsi bu sahənin inkişafına təkan verildi.

Belə ki, 2016-cı ildə tütünün əkin sahəsi 1,4 min hektardan 2,4 min hektara qədər artdı. 2016-cı ilin məhsuluna görə 195 fermerə 95.542,7 manat məbləğində subsidiya, 2008-ci ildən başlayaraq tütünçülüyün inkişafı ilə bağlı Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 nəfərə 2 milyon manat məbləğində güzəştli kredit ayrılıb. Dövlət Statistika Komitəsinin 2017-ci il iyunun 24-nə olan məlumatına əsasən, respublikada 3257 hektar sahədə tütün əkilib. Əkilən tütünün əksər hissəsini (2051 hektar və ya 62,9 faizi) "Virciniya", 5,3 faizini "Berley" sortu təşkil edir.

2016-cı ildə Azərbaycan 2217.9 ton və ya 7982.7 min ABŞ dolları dəyərində tütün xammalının (orta damarcığı çıxarılmayan tütün, orta damarcığı qismən və ya tamamilə çıxarılmış tütünü) ixracını həyata keçirib. Bu baxımdan, əminliklə demək olar ki, perspektiv və gəlirli sahə olan tütünçülüyün inkişaf etdirilməsi yaxın gələcəkdə həm yeni iş yerlərinin yaradılması, həm ixracın artırılması, həm də ölkəyə valyuta gətirilməsində önəmli rol oynayacaq.

# İpəkçiliyin inkişafında barama toxumçuluğunun təşkili xüsusi əhəmiyyət daşıyır



Prezident İlham Əliyevin sədrliyi ilə avqustun 4-də Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində dövlətimizin başçısı Şəki-Zaqatala bölgəsində kənd təsərrüfatının digər sahələri ilə yanaşı, baramaçılığın inkişaf etdirilməsi üçün də çox yaxşı ənənə və böyük potensialın olduğunu diqqətə çatdırıb. İpəkçiliyin inkişafının təmin edilməsində barama toxumçuluğunun təşkilinin böyük əhəmiyyət daşıdığını vurğulayan Prezident İlham Əliyev bu sahədə xarici bazarlardan asılılığın azaldılması və aradan götürülməsinin, lazım olan bütün materialların Azərbaycanda yetişdirilməsinin vacibliyini önə çəkib. Dövlətimizin başçısı bildirib ki, Qax Damazlıq İpəkçilik Stansiyasının yenidən qurulması və ən yüksək avadanlıqla təchiz edilməsi üçün artıq Prezidentin ehtiyat fondundan 4,5 milyon manat vəsait də ayrılıb.

Respublika müşavirəsinin iştirakçısı, Damazlıq İpəkçilik Stansiyasının direktoru Əkrəm Fətəliyev AZƏRTAC-a müsahibəsində bu sahədə görülən işlər və nəzərdə tutulan tədbirlər barədə məlumat verib. Direktor bildirib ki, stansiyanın layihə-smeta sənədlərinin hazırlanması işi artıq başa çatıb və avqustun ikinci ongünlüyündə tikinti işlərinə başlanılacaq. Yenidənqurma işləri zamanı stansiyanın ərazisində olan bina əsaslı təmir olunacaq, ərazidə əlavə istehsal korpusu, həmçinin inzibati bina və yardımçı tikililər inşa ediləcək. Stansiyada Çin Xalq Respublikasından gətiriləcək ən müasir avadanlıq quraşdırılacaq. Stansiya istifadəyə verildikdən sonra burada super-elit, elit və hibrid barama toxumları yetişdiriləcək.

Əkrəm Fətəliyev bildirib ki, son illər kümçülərin damazlıq barama toxumu ilə təmin edilməsi Çin Xalq Respublikasından alınaraq ölkəmizə gətirilən və Qax Damazlıq İpəkçilik Stansiyasında inkubasiyaya qoyulan toxumlardan alınan ipəkqurdunun hesabına həyata keçirilib. Stansiya müasir standartlara uyğun yenidən qurulduqdan sonra daha xaricdən toxum gətirməyə ehtiyac qalmayacaq və bu işlər stansiyanın özündə təşkil olunacaq.

Direktorun sözlərinə görə, stansiya tam gücü ilə işlədikdə, burada 40 min qutu ipəkqurdu toxumu hazırlamaq mümkündür.

Xatırladaq ki, barama istehsalçılarını ipəkqurdu toxumu ilə təmin etmək üçün cari mövsümdə Çin Xalq Respublikasından ölkəmizə 6 min qutu ipəkqurdu toxumu gətirilib. Əkrəm Fətəliyev onu da qeyd edib ki, baramaçılığın gələcək inkişafını təmin etmək və onun yem bazasını möhkəmləndirmək məqsədi ilə ötən il Çin Xalq Respublikasından ölkəmizə gətirilən 1,5 milyon tut tinginin 20 min ədədi stansiyanın yaxınlığında əkilib. Tinglərin bitişi normaldır və gələn mövsümdən etibarən onlardan istifadə etmək mümkün olacaq.

# Fındıq bağlarının artırılması əhalinin maddi gəlirlərini daha da artıracaq



Prezident İlham Əliyevin Qax rayonuna hər səfəri yeni-yeni obyektlərin, sosial-infrastruktur layihələrinin, emalyönümlü müəssisələrin açılışı ilə yadda qalır. Bu dəfəki səfər də istisna təşkil etməyib, yeni avtomobil yolları, elektrik yarımstansiyası istifadəyə verilib. Rayonumuzda Bayraq Muzeyinin açılışı isə, bir gənc kimi, məni çox qürurlandırdı. Fəxr edirəm ki, indi şəhərimizin girişində, 62 metr yüksəklikdə üçrəngli Azərbaycan bayrağı dalğalanır. Bu sözləri Qax şəhər sakini Elnur Abdullayev AZƏRTAC-a müsahibəsində deyib. Kənd təsərrüfatının ənənəvi sahələrindən olan barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsinin məhz Qaxda keçirilməsinin rayonun hər bir sakini kimi, onda da böyük qürur hissi doğurduğunu vurğulayan gənc deyib: "Qısa müddətdir ki, fındıq bağlarının salınması ilə məşğul olan şirkətin yerli qurumunda işlə təmin olunmuşam. Dövlətimizin başçısı müşavirədə digər sahələrlə yanaşı, fındıqçılığın da gələcək inkişafı ilə bağlı çox mühüm məsələlərə toxundu, tapşırıqlar verdi. Yaxın gələcəkdə respublikamızda mövcud fındıq bağlarının sahəsinin 80 min hektara çatdırılması qarşıya hədəf olaraq qoyulub. Fındıqçılığın çox gəlirli sahə olduğunu nəzərə alsaq, deməli, gələcəkdə kənd əhalisinin gəlirlərinin daha da artması üçün real şərait yaranacaq. Bu sahədə çalışan gənc olaraq, qarşıya qoyulan məqsədlərə çatmaq üçün var qüvvəmlə çalışacağam".

# Şəkili fermer: Tütünçülüyün inkişafına dövlət dəstəyi bizi daha da ruhlandırır



Tütünçülüyün inkişafına dövlət tərəfindən yüksək diqqətin göstərilməsi, subsidiyaların ayrılması, tütünün satış qiymətinin artırılması fermerlərin bu sahəyə marağını xeyli artırıb. Şəkidən olan gənc fermer Həsən Səfərov ikinci ildir ki, tütünçülüklə məşğuldur. O, ötən il Qax və Şəki rayonlarının ərazisində 31 hektar sahədə tütün əkib, 540 ton yaşıl tütün kütləsi istehsal edib. Dövlətin bu sahəyə dəstəyindən ruhlanan gənc fermer bu il tütün əkini sahələrini 2 dəfədən çox genişləndirərək 64 hektara çatdırıb. Prezident İlham Əliyevin sədrliyi ilə avqustun 4-də Qaxda keçirilən respublika müşavirəsinin nəticələrinin tütünçülüyün gələcək inkişafına böyük təsir göstərəcəyinə əminliyini ifadə edən fermer AZƏRTAC-a müsahibəsində deyib: "Müşavirədə dövlətimizin başçısı nitqində tütünçülüyün inkişafına dair xüsusi Dövlət Proqramının qəbul ediləcəyini diqqətə çatdırdı. Bu, biz fermerlərin ürəyincədir. Tütün istehsalçısı hər zaman əmin olmalıdır ki, yetişdirdiyi məhsul sahələrdə qalmayacaq, tütünü asanlıqla qəbul məntəqələrinə təhvil verəcək. Bu istiqamətdə onsuz da problemlə üzləşmirik, qəbul məntəqələrində hər cür şərait yaradılıb. Bir daha əmin olduq ki, dövlət bu sahəyə dəstəyini heç zaman əsirgəməyəcək".

Gənc fermer mövsümün əvvəlindən indiyədək qəbul məntəqəsinə 270 ton yaşıl tütün kütləsi təhvil verib. Tütün yığımına 50 nəfərədək işçi cəlb edib. Onların hər birinə zəhmət haqqı olaraq, gündəlik 10 manat ödənilir. Hələlik sahələrdə məhsul boldur. Fermer cari mövsümdə 900 tona yaxın tütün istehsal etməyi qarşısına məqsəd qoyub.

# Fındıqçılıq üzrə Azərbaycan dünya miqyasında üçüncü yerə çıxa bilər

*Prezident İlham Əliyev: "Hazırda fındıqçılıqla 9 min nəfər məşğuldur, yeni bağlar salınandan sonra təqribən 20 min nəfərə çatacaqdır"*

***Fındıqçılıq, son illər ərzində, Azərbaycanda geniş inkişaf edib. Statistikaya əsasən, demək olar ki, 2000-ci ildə Azərbaycanda fındıq bağlarının sahəsi 18 min hektar idi, 2013-cü ildə bu, 30 min hektara, 2015-ci ildə 32 min 700 hektara çatıb. Hazırda 55 min hektarda fındıq bağları salınıb. Bu da, onun nəticəsidir ki, dövlət bu sahənin də inkişafını öz üzərinə götürüb. Lazım olan bütün texniki tədbirlər dövlət hesabına aparılıb, xaricdən tinglər gətirilib, Azərbaycanda da yetişdirilib və qısa müddət ərzində, çox böyük işlər həyata keçirilib.***

Əkin sahələri 32 min hektardan 55 min hektaradək artıb, yeni 23 min hektarda yeni fındıq bağları salınıb. 14 min 800 ton fındıq ixrac edilib. Fındıq ixrac edilən əsas ölkələr sırasında isə İtaliya (40 milyon dollar), Rusiya (30 milyon dollar), Almaniya (24 milyon dollar) üstünlük təşkil edib. Amma bütövlükdə, 25 ölkəyə fındıq ixrac edilir. Yəni bu, onu göstərir ki, həmin ölkələrdə tələbat var, sadəcə olaraq, bu ölkələrə çox az həcmdə fındıq ixrac edilir. Bu statistika onu göstərir ki, fındığın ixracı ilə bağlı gələcəkdə heç bir problem olmayacaq.





Qarşıya məqsəd qoyulub ki, fındıq bağlarının sahəsi 80 min hektara çatdırılsın. Bu, aparılmış təhlil əsasında formalaşmış real rəqəmdir. Əgər 1-2 il ərzində 32 min hektardan 55 min hektara artırmaq mümkün olmuşdursa, 80 min hektarda bağların salınması tam real rəqəmdir. Məhz Prezident İlham Əliyevin tapşırığı, bundan ibarətdir ki, Azərbaycan növbəti bir neçə il ərzində buna nail olmalıdır: "Fındıq keçən il kənd təsərrüfatı məhsulları arasında ən çox gəlir gətirən məhsul olmuşdur. Ancaq onu da deyim ki, məncə, fındıqçılıq bu liderliyi saxlaya bilməyəcək. Çünki Azərbaycanda indi çoxlu istixanalar salınır və pomidor istehsalı sürətlə artır. Gəlir gətirən ixrac kənd təsərrüfatı məhsulları arasında pomidor indi birinci yerdədir. Ona görə, fındıqçılar gərək çalışsınlar ki, liderliyi əldən verməsinlər. Keçən il fındıq satışından ölkəyə 105 milyon dollar valyuta gəlib. Ancaq satış qiyməti aşağı olub. Məndə olan arayışda göstərilir ki, keçən il bir kiloqramın qiyməti 4,8 manat olub, 2017-ci ilin aprel ayında 6,2 manata satılıbdır. Dünya üzrə qiyməti isə, hazırda bizim pulla 10 manatdır. Ona görə, hesab edirəm ki, fındığın satış qiyməti ilə bağlı artım üçün imkanlar var. Hazırda fındıqçılıqla 9 min nəfər məşğuldur, yeni bağlar salınandan sonra təqribən 20 min nəfərə çatacaqdır. Bizim tövsiyəmizlə Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası yaradıldı ki, bu işlər mərkəzləşmiş qaydada aparılsın, fermerlərə kömək göstərilsin, onların məhsulu mərkəzləşmiş şəkildə alınsın və ixrac edilsin. Fındığın əsas alıcıları böyük şokolad fabrikləridir. Biz də fındığı daha çox oraya satırıq. Amma çalışmalıyıq ki, birbaşa müqavilələr bağlansın. Yəni burada vasitəçilər az rol oynasınlar. Çalışmalıyıq ki, fındığın çeşidi də artsın. Çünki biz bunu xaricə daha çox vakuum şəklində satırıq. Xaricdə isə, ya fabriklərdə istifadə olunur, ya da orada paketləmə aparılır. Biz paketləməni də, çeşidləməni də Azərbaycanda aparmalıyıq. Ona görə, yeni avadanlıq gətirilməlidir ki, biz hazır məhsulu dünya bazarlarına çıxara bilək. Bizdə yetişdirilən fındıq sortları çox keyfiyyətlidir və xarici bazarlarda yüksək qiymətləndirilir".

Qeyd edək ki, hazırda xarici ölkələrdə Azərbaycanın ticarət evləri yaradılır. Birinci ticarət evi yaradılıb. Xarici ölkələrdə ticarət nümayəndəlikləri yaradılır, bir çox ölkələrə ticarət missiyaları göndərilib və fındıq ixracatı orada həmişə qeyd olunur. Ölkələr bu məhsulu qəbul etməyə hazırdır, sadəcə olaraq, istehsalı artırmalı və hazır məhsul ixrac etməliyik. Fındıqçılar, onu da yaxşı bilirlər ki, Azərbaycan fındıq istehsalı sahəsində dünya miqyasında birinci yerlərdədir. Məhz bu baxımdan da, indi görüləcək tədbirlər nəticəsində, Azərbaycan dünya miqyasında üçüncü yerə çıxa bilər.

***"Səs" Analitik Qrupu***

# Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər

***Dövlət Sərhəd Xidmətinin Göytəpə şəhərində yerləşən hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi anda gətirildikdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbriki çatdırılıb.***



Mərasimdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilib.

Çıxış edənlər Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və xidmətdə yüksək nəticələrə nail olacaqlarına əminliklərini bildirib, onlara müvəffəqiyyətlər arzulayıblar. Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası üçün istənilən anda ordumuzla birgə hərəkət etməyə, Dağlıq Qarabağda və işğal altında olan digər ərazilərdə Azərbaycanın suveren hüquqlarının bərpası, Vətənimizin bütün sərhədlərinin mühafizə altına alınmasının təmin edilməsi uğrunda savaşa daim hazır olduğu xüsusi vurğulanıb.

Valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər. Tədbir gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

# Nərimanov rayonunda ağır yol-nəqliyyat hadisəsini törədən şəxs həbs edilib

***Xəbər verildiyi kimi, avqustun 3-də saat 21 radələrində paytaxtın Nərimanov rayonu ərazisində naməlum sürücünün idarə etdiyi "Mercedes-Gelandawagen" markalı avtomobillə iki nəfərin ölümü və iki nəfərin müxtəlif dərəcəli bədən xəsarətləri alması ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş verib.***



Daxili İşlər Nazirliyinin və Respublika Baş Prokurorluğunun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, faktla əlaqədar Cinayət Məcəlləsinin 263.3-cü (yol hərəkəti qaydalarını pozma - iki və daha artıq şəxsin ölümünə səbəb olduqda) və 264-cü (yol-nəqliyyat hadisəsi yerindən qaçma) maddələri ilə başlanılmış cinayət işi üzrə zəruri istintaq hərəkətləri və təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri həyata keçirilib. Qəzanın baş verdiyi ərazidə olan müşahidə kameralarının görüntülərinə baxış zamanı "Mercedes-Gelandawagen" markalı avtomobilin sükanı arxasında Bakı şəhər sakini, 1994-cü il təvəllüdlü Nail Elman oğlu Allahverdiyevin olması tam təsdiq edilib. Məhkəmənin qərarı ilə onun barəsində 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Bundan başqa, həmin vaxt orada yüksək sürətlə avtoxuliqanlıq hərəkətləri törətməklə ictimai asayişi kobud şəkildə pozan "Mazda" markalı avtomobilin sürücüsü Bakı şəhər sakini, 1995-ci il təvəllüdlü Mirməhəmməd Əlövsət oğlu İsmayılovun olması da müəyyən edilib və məhkəmə tərəfindən barəsində 1 ay müddətinə inzibati həbs qərarı verilib.

"Bununla əlaqədar qeyd edirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə etdiyi ciddi xəbərdarlıqlardan nəticə çıxarmayan, özbaşınalıq və cinayətlər törətməkdən belə çəkinməyən dövlət məmurlarına və onların ailə üzvlərinə hələ də rast gəlinir. Odur ki, Daxili İşlər Nazirliyi və Respublika Baş Prokurorluğu bir daha bildirir ki, tutduğu vəzifəsindən, etdiyi xidmətlərdən və nüfuzundan asılı olmayaraq dövlətimizin başçısının məlum tələblərinə etinasız yanaşan, öz davranışları ilə cəmiyyətə qarşı açıq hörmətsizlik nümayiş etdirən, mövcud qayda-qanunları kobud şəkildə pozan hər bir məmur və onların ailə üzvləri barəsində qanunvericiliyə uyğun olaraq ən sərt tədbirlər görüləcək", - deyə məlumatda bildirilir.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

8 avqust 2017-ci il

# "Yerində tarix" ekoturçuları Hacıkənd qəsəbəsində olublar

***"Yerində tarix" adlı ekotur iştirakçıları Gəncə şəhərinin Hacıkənd qəsəbəsinə səfər ediblər. Layihə Gəncə şəhər icra hakimiyyətinin dəstəyi, Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı, "Avropa Gənclər Paytaxtı-2016" İctimai Birliyi və Gəncə Dövlət Universitetinin təşkilatçılığı ilə gerçəkləşib. Ekoturda iştirak edən 140 nəfərə yaxın fəal gənc qəsəbədəki tarixi abidələrlə yaxından tanış olublar.***




Ekoturun keçirilməsində məqsəd gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların ekoloji bilik və bacarıqlarını inkişaf etdirmək, həmçinin, Gəncənin qədim tarixini özündə əks etdirən maddi-mədəniyyət abidələri ilə yaxından tanışlıqdır. Ekotur iştirakçıları Gəncənin Hacıkənd qəsəbəsində yerləşən XIX əsrin yadigarı olan 4 tarixi abidə - Qubernator Evi, Qubernator Dəftərxanası, Forer Qardaşlarının Evi və rus pravoslav kilsəsi ilə yaxından tanış olublar. Milli Məclisin deputatı, YAP Gəncə şəhər təşkilatının sədri Naqif Həmzəyev ekotur iştirakçılarına məlumat verib ki, şəhərin 19 kilometrliyində yerləşən, saf iqlimi, bulaq suları, zəngin meşələri ilə bütün Qafqazda şöhrət qazanmış Hacıkənd gəncəlilərin əsas yaylaq yerlərindəndir. Göygöl-Hacıkənd bölgəsinin səfalı təbiətinə bələd olanlar bu yerlərə böyük həvəslə gəlirlər. Hazırda Hacıkənd qəsəbəsinin abadlaşması, tarixi binalarının bərpası istiqamətində mühüm işlər həyata keçirilir. Ərazidə yeni park salınır, turizmin inkişafı məqsədilə otel kompleksi inşa olunur.

Gəncə Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti Cavid Bağırzadə ekotur iştirakçılarına Hacıkənd qəsəbəsinin tarixi-coğrafi şəraiti, iqlim və relyef xüsusiyyətləri, eləcə də, ərazinin tarixi və burada yerləşən abidələr haqqında ətraflı məlumat verib. Universitetin rektoru, professor Yusif Yusibov ekotur iştirakçılarını rəhbəri olduğu ali təhsil ocağının tarixi, maddi texniki bazası, dünyanın nüfuzlu universitetləri ilə əməkdaşlığı, mübadilə proqramları haqqında məlumatlandırıb və tələbələrin suallarını cavablandırıb.

Tarixi məkanlarla tanışlıqdan sonra ekotur iştirakçıları üçün açıq havada mədəni-kütləvi idman proqramları və müxtəlif oyunlar təşkil olunub. Gənclər üçün motivasiya xarakterli təlimlər keçirilib. Ekotur iştirakçısı olan gənclər vurğulayıblar ki, tarixi abidələrlə tanışlıq onların Gəncə ilə bağlı biliklərini daha da zənginləşdirib. Təşkilatçılara təşəkkürlərini bildirən gənclər ekoturun onlar üçün faydalı olduğunu və ali təhsil ocaqları arasında sıx əlaqələrin qurulmasına xidmət etdiyini bildiriblər.

**Rövşən**

## Bu gün Bakıda 40, Abşeron yarımadasında 41 dərəcə isti olacaq

***Azərbaycanda avqustun 8-nə gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verilən məlumata əsasən, Bakıda və Abşeron yarımadasında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək.***



Havanın temperaturunun gecə 23-26°, gündüz 36-41° isti, Bakıda gecə 24-26°, gündüz 38-40° isti olacağı gözlənilir. Atmosfer təzyiqi 758 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 35-45 faiz təşkil edəcək.

Abşeron çimərliklərində dəniz suyunun temperaturu Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəhdə 27-28°, Zağulba, Buzovna, Mərdəkan, Şüvəlanda 28-29°, Türkan, Hövsan, Sahil, Şıxda 29-30° isti olacaq.

Sinoptiklərin tibbi-meteoroloji xəbərdarlığına əsasən, avqustun 8-9-da Abşeron yarımadasında anomal isti hava şəraitinin davam edəcəyi ehtimal edilir ki, bu da əksər əhali üçün çox əlverişsiz olacaq. Gündüz saatlarında uzun müddət günəş altında qalmaq risklidir.

Azərbaycanın rayonlarında hava şəraitinin yağmursuz keçəcəyi ehtimalı var. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20°, gündüz 29-34° isti olacağı gözlənilir.

Naxçıvan Muxtar Respublikasında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 21-26°, gündüz 38-43° isti olacağı gözlənilir.

Yuxarı Qarabağ: Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Qubadlı, Zəngilan, Laçın, Kəlbəcər, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında hava yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 29-34° isti olacağı gözlənilir.

Qazax, Gəncə, Goranboy, Tərtər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40° isti olacağı gözlənilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava yağmursuz olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 19-24°, gündüz 34-39° isti, dağlarda gecə 14-19°, gündüz 27-32° isti olacağı gözlənilir.

Mərkəzi Aran: Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək.

Havanın temperaturunun gecə 20-25°, gündüz 35-40°, bəzi yerlərdə 42° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava günəşli olacaq. Zəif şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-25°, gündüz 35-39° isti, dağlarda gecə 16-21°, gündüz 29-34° isti olacağı gözlənilir.



İLHAM

## Müxalifət demokratiyanı niyə anlamır?

***Bu gün yerindən duran və yeriməyə çalışan, xüsusilə də, siyasətə gəlib müxtəlif siyasi bəyanatlarla çıxış edənlər demokratik təsisatlardan, vətəndaş cəmiyyəti quruluşundan və bu kimi, eləcə də, buna bənzər fikirlər səsləndirir. Əksəriyyəti də iddia edib müxtəlif qarışıq cümlələrlə sübut etməyə çalışırlar ki, onların normal fəaliyyət göstərmələri üçün demokratik mühit yoxdur. Amma bu "demokratlara" sual versən ki, danışdıqlarının və dediklərinin məğzi və mənası nədir, inanın ki, ağızlarına su alıb dayanacaqlar. Dümsükləmək, qapaz vurub atmacalı söz atəşinə tutmaq da mənasızdır.***

Çünki "Eşşək nə bilir zəfəran nədir?" məsəli olmasın, müxalifət başbilənləri nə bilirlər ki, demokratiya nə olan şeydir?! Deyilənə görə, ALP-nin indiki sədri Əvəz Temirxan Moskvadan baş götürüb Azərbaycana gələndə, demokratik məsələlərdən söz-söhbət eşidən zaman, elə bilib ki, demokratiya Cənubi Afrikada demak meyvəsinin "kratiya" hissəciyi kimi əlavə edilmiş söz birləşməsidir. Yəni yeməli bir şeydir. Babalı deyənlərin boynuna. Qondarma vəkil Aslan İsmayılov da Sumqayıt hadisələrini Moskvadakı ağalarının xeyrinə çözmək üçün Bakıya gəldiyi zaman demokratiya sözünü çox eşitdikdən sonra, dostlarından birinə "aclığım yoxdur" deyə bildirib. Deyilənə görə, A.İsmayılovun bu cür savadsız-savadsız yanaşma nümayiş etdirməsindən dostu Əli Kərimli çox pərişan olub. Onu yanına çağırıb demokratiyanın əsl mahiyyətindən, məqsəd və vəzifələrindən söz açıb. Bildirib ki, bu sözü dilimizə yunanlar gətirib. A.İsmayılov da eləməyib tənbəllik, müxtəlif ədəbiyyatlar vərəqləyib. Biləndə ki, demokratiya sözü bizim eradan 500 il əvvəl Yunanıstanda termin olaraq işlədilib, qeyzlənib. Müxalifətin umumi yığıncağında bəyan edib ki, niyə o demokratiyadan müxalifətdə də olmasın? Beləcə, bu termin müxalifətin ağız yarasına çevrilib. Elə o zamandan yığışıb hansısa məsələlər ətrafında müzakirələr aparıb, qərarlar qəbul edirlər. Amma bu qərarlar kağız parçası üzərində qalmaqdan başqa, bir işə yaramır. Bir-birini ittiham etmək, şərəf və ləyaqətini təhqir etmək müxalifətin həyat fəlsəfəsinə çevrildiyindən, blok və qurumların yaradılması ilə bağlı qərarlar reallığa çevrilmir.

Müsavatın keçmiş başqanı İsa Qəmbər Mhatma Qandidən (azadlıq ifrat dərəcəsinə çatdıqda, özbaşınalığa çevrilir - M.Q.) sitat gətirərək, iddia edir ki, guya müxalifət düşərgəsində azadlıq və demokratiya o qədər şişib ki, nəticədə, partiya funksionerlərinin birinin dediyini o biri qəbul etmək istəmir. Müxalifətin ən ağıllı simalarından hesab olunan "Milli Şura"nın sədri Cəmil Həsənli isə, müxalifətdaxili birliyin baş tutmamasını demokratik proseslərin nəticəsi kimi qiymətləndirir. O da əqidə yoldaşı İ.Qəmbər kimi, iddia edir ki, demokratik prinsiplər və fərqli yanaşmalar, ideya və təkliflər onların bir araya gəlmələrinə əngəllər yaradır.

Dünən Müsavat qərargahında keçirilən ali məclisin toplantısında elə mənim müraciət etdiyim mövzuya toxunulub. Müsavat başqanı Arif Hacılı boynunu büküb, yazıq-yazıq deyib ki, demokratik tələblər ifrat dərəcədə yüksək olmasa, müxalifət birləşə və ölkədə gedən ictimai-siyasi proseslərdə fəal iştirak edə bilər. Onun bu təklifinin qəbul ediləcəyi və ya edilməyəcəyini demək çətin olsa da, bir şey gün kimi aydındır ki, bu müxalifət 25 ildir demokratiyanın nə olduğunu anlamır. Bu baxımdan, onların axırına çıxsa, elə bu terminin mahiyyətini başa düşməmələri çıxacaq.

# ABŞ Ermənistana hansı xəbərdarlığı edib?

*Yaxud Rusiyanın əllərini sallayaraq ermənilərlə vidalaşacağını gözləmək, sadəcə, sadəlövhlük olardı...*

***Son vaxtlar Ermənistanda Rusiyanın asılılığından qurtularaq Qərbə doğru yeni inteqrasiya yolunu tutması ətrafında səslənən fikirlər, istər ölkə rəhbərliyində, istərsə də müxtəlif dairələrdə ən çox mübahisə predmetli mövzuya çevrilib. Xüsusilə, Qərb meyilli siyasətdə aparıcı rola malik olan ABŞ-ın dövlət rəsmilərinin Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi bir ərəfədə Ermənistan tərəfi ciddi təlaşlar keçirməyə başlayıblar.***





Əbəs yerə deyil ki, Ermənistan prezidenti Serj Sarkisyan, "yeni ideyası" çərçivəsində, İran qazının ölkəsi üzərindən Avropaya çatdırılması planını irəli sürməklə, Qərb qarşısında nüfuz formalaşdırmağa çalışıb. Ancaq bu ideyanın reallaşdırılması, uzun vaxt tələb etməklə yanaşı, Avropanın siyasi dairələri tərəfindən, hələ ki, ciddi qəbul edilmir. Çünki ortada Rusiya faktoru var və Ermənistan, Rusiyanın vassalı olaraq, öz vədinə xilaf çıxmayacağını kimsəyə sübut edə bilməz. Görünür, ABŞ da, ümumilikdə, Qərb siyasətinin avanqard gücü kimi öz şərtlərini irəli sürüb və nəticəsini gözləyir.

## Amerikalı analitik Pol Qobla görə, ABŞ prezidentinin bəyanatı Ermənistana da aiddir

Məsələn, ABŞ-ın vitse-prezidenti Mayk Pens Estoniyaya, Gürcüstana və Çernoqoriyaya səfəri zamanı prezident Donald Trampın bir sıra ölkələrə xəbərdarlığını çatdırıb. Bu barədə Ermənistanın "lragir.am" saytının analitik bölməsi qeyd edir ki, Trampın sözlərini çatdıran Pensin bəyanatına görə, ABŞ Şərqi Avropada müttəfiqləri ilə bir yerdədir və onun ölkəsi ilə əməkdaşlıq edən digər ölkələri Rusiyanın təcavüzündən müdafiə etməyə hazırdır.

Bu arada erməni nəşri tanınmış amerikalı analitik Pol Qoblun Trampın bəyanatı istiqamətində digər erməni xəbər saytı - "1in.am"a verdiyi şərhi diqqətə çatdırıb. Belə ki, Qobla görə, ABŞ prezidentinin bəyanatı Ermənistana da aiddir. "Lakin burada Ermənistanın da Rusiyaya münasibətindən çox şey asılıdır"-deyə amerikalı analitik bildirib. SİTAT: "Zaman-zaman ABŞ Ermənistanın Rusiyaya və rus təcavüzkarlığına münasibəti baxımından, bu ölkəyə tez-tez nəzarət edəcək. Əgər Yerevan Moskvanı müdafiə edəcəksə, çətin ki, onun ABŞ-la münasibətləri genişlənə bilsin".

## Sanksiyalar nəhəng qaz layihələrinə qarşı hədəflənib

Erməni nəşri, həmçinin, yazır ki, Maykl Pensin səfərləri ABŞ Konqresinin Rusiyaya qarşı yeni sanksiyalar qəbul etməsi ilə üst-üstə düşüb. "Xüsusilə, sanksiyalar nəhəng qaz layihələrinə qarşı hədəflənib, onlar Rusiyaya zərbə təsiri verdi. Bu, sözsüz ki, iqtisadi və siyasi cəhətdən Moskvanın potensialına təsir edəcək. Yəni ABŞ-ın dəstəyi yalnız bəyanatlarında deyil, konkret fəaliyyətində də görünəcək"-deyə sözügedən mövzunu şərh edən "lragir.am", həmçinin, yazır ki, ekspertlərin rəyinə görə, hazırkı sanksiyaları əks etdirən qanunun universallığı manevrlər üçün geniş sahə açır: "Məsələn, qanun imkan verir ki, Rusiyanın layihələrində iştirak edən istənilən ölkə cəzalandırıla bilər. Bununla, Rusiyanın izoləsi daha da dərinləşir və onun partnyorları beynəlxalq maliyyə imkanlarından məhrum olurlar. Eyni zamanda, Rusiya ətrafındakı məngənə yavaş-yavaş sıxılır..."

## Müstəqilliyini Rusiyaya peşkəş etmiş Ermənistan rəhbərliyi Şimal qonşusundan yaxa qurtara bilməsi üçün qurbanlar verməyə hazır olmalıdır

Qoblun şərhinə davam edtirən nəşr qeyd edir ki, amerikalılar yalnız iqtisadiyyatla qənaətlənməyəcəklər, zamanı çatacaq siyasi faktor da qüvvəyə minəcək. "Tramp administrasiyasının xarici siyasət trendi və vektoru daha aydın şəkildə görünməyə başlayır"-yazan erməni nəşrinə görə, belə hesab etmək olar ki, o, (Tramp) qlobal cavabdehlikdən yayınaraq, "özünüizolə" siyasəti yürüdür və Amerikanın daxili problemlərinə konsentrə olunur. "Lakin Amerika özünü izolə edə bilməz, əks halda, bu ölkə daxili məqsədlərini həll edə bilməz"-deyə nəşrin analitik bölümündə bildirilir.

Beləliklə, erməni nəşrinin yazdıqlarından da, qənaətə gəlmək mümkündür ki, hazırda ölkəsi daxilində anti-Rusiya külləkləri əsən rəsmi Yerevan çox çətin və çıxılmaz vəziyyətdə qalıb. Daha dəqiq desək, müstəqilliyini Rusiyaya peşkəş etmiş Ermənistan rəhbərliyi Şimal qonşusundan yaxa qurtara bilməsi üçün qurbanlar verməyə hazır olmalıdır. İstər Dağlıq Qarabağ problemi ətrafındakı inadkarlıq siyasəti, istərsə də digər məsələlərdə Rusiyaya bel bağlayan Ermənistan, indi bu siyasətindən əl çəkməli və Qərbə doğru meyillənməlidir. Bu zaman Qərbin, xüsusilə, ABŞ-ın Ermənistana nə qədər etibar edəcəyi məsələsi də böyük sual altında qala bilər. Hər halda, Ermənistanda hərbi bazaları, sərhəd qoşunları olan Rusiyanın əllərini sallayaraq, ermənilərlə vidalaşacağını gözləmək, sadəcə, sadəlövhlük olardı...

***Rövşən NURƏDDİNOĞLU***



# İsa Qəmbər niyə peşmandır?

**RƏFİQƏ**

***Son vaxtlar Müsavatda baş verən və bilavasitə, başqan Arif Hacılıyla bağlı olan qarşıdurmalar partiyadaxili istefaların sayını artırmaqla yanaşı, həm də bu prosesi sürətləndirir. Hətta baş verənlər öz yerini hansısa şərtlər müqabilində A.Hacılıya vermiş İsa Qəmbəri də narahat etməyə başlayıb. Onu da, iddia kimi irəli sürənlər var ki, Müsavatdaxili qarşıdurmalarda AXCP sədri Əli Kərimlinin də barmağı var. Yəni ötən tarixə diqqət yetirsək, görərik ki, AXCP-Müsavat arasındakı düşmənçilik şəxsi müstəvidə olan münasibətlərə - Ə.Kərimli-İ.Qəmbər münasibətlərinə söykənir. Bu gün İ.Qəmbər Müsavatın başqanı deyil və fakt budur ki, onun partiya sədrliyindən getməsi siyasi təşkilatı böhrana sürükləyib.***

## İsa Qəmbər artıq hər şeyin gec olduğunu başa düşür və susmağa üstünlük verir

Bu da, faktdır ki, A.Hacılı da başqan olduğu dövrdən etibarən AXCP sədri Ə.Kərimli ilə münasibətlərini düzəltməyə çalışıb. Ə.Kərimli də Müsavatla yeni əməkdaşlığın yalnız "Milli Şura" formatında mümkün olduğunu bildirib. Sözsüz ki, A.Hacılı da fikirləşəcəyini deyib, eyni zamanda, Müsavatı yenidən "Milli Şura"ya üzv etdirməsində İ.Qəmbərin mane olduğunu da vurğulayıb... (!)

Doğrudur, İ.Qəmbər bu gün partiyada belə vəziyyətin yaranacağını nəzərə almayaraq, A.Hacılının saxta yolla başqan seçilərkən, ona dəstək olanda, heç gözləmirdi ki, sonradan Hacılı AXCP sədri Ə.Kərimli ilə birlik təşkil edərək, ona qarşı xəyanət edəcək. Ancaq bu gün düşünülməmiş addımından peşmançılıq çəkdiyini deyən İ.Qəmbər artıq hər şeyin gec olduğunu başa düşür və susmağa üstünlük verir.

## İstefa verənlərin xam xəyalları

Yeri gəlmişkən, hələ bir müddət öncə "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu A.Hacılı klanının başlatdığı AXCP ilə yeni münasibətlər planlarını qaragüruhçuluq, anti-demokratik addım kimi qiymətləndirmişdi. İstefaya gedənlər isə, xam xəyallarla yaşayaraq, bildirirlər ki, əgər İ.Qəmbər Müsavata yenidən başqan kimi qayıdarsa, Müsavata geri dönəcəklər... Ancaq bütün hallarda proseslər A.Hacılının ziyanına işləyir və belə olan halda, onun yalnız bir çıxış yolu qalır: Müsavat başqanlığından getməklə, "siyasətə əlvida" demək. Ancaq buna qədər gərək İ.Qəmbər də qolunu çırmalayıb öz səhvini düzəltsin. Yoxsa zamanı boşa verməklə, peşmançılığı da artacaq. Sonrakı peşmançılıq isə fayda vermir...

# Ukraynada bir həftədə 99 nəfər suda boğularaq ölüb



Ötən həftə Ukrayna ərazisində şiddətli istilərin olması suda boğulanların statistikasına da təsir edib. AZƏRTAC-ın Ukraynanın Fövqəladə Hallar üzrə Dövlət Xidmətinə istinadən verdiyi məlumata görə, 31 iyul-6 avqust tarixlərində ölkə ərazisindəki sularında 99 nəfər ölüb. Bu isə il ərzində suda boğularaq ölənlərin 14 faizə yaxını deməkdir. İlin əvvəlindən bu günə qədər ölkə sularında 685 nəfər ölüb ki, bunların da 70 nəfəri uşaq olub. Xilasedicilər il ərzində 484 nəfəri xilas edə bilib. Onlardan 106-sı uşaq olub.

# Çində daşqınlar nəticəsində 3 nəfər həyatını itirib, 200 min insan təxliyə olunub



Çinin Lyaonin əyalətinin şimal-şərqində uzunsürən leysan yağışları və onların səbəb olduğu daşqınlar 3 nəfərin ölümü ilə nəticələnib. 188 min yerli sakin təhlükəli ərazilərdən təxliyə olunub. AZƏRTAC Sinxua informasiya agentliyinə istinadla xəbər verir ki, əlverişsiz hava şəraiti əyalətin 7 şəhərində ümumilikdə 570 min nəfərə təsir edib. Hökumətin məlumatına əsasən, təbii fəlakət nəticəsində minlərlə evə ziyan dəyib, 66,4 hektar əkin sahəsi zərər görüb. Bəzi yaşayış məntəqələrində elektrik enerjisi ilə bağlı problemlər yaranıb, yollar dağılıb.

TƏRS BAXIŞ

# "Müxalifət yenilənməlidir" deyənlər özləri də yenilənə bilərlərmi?

*Etimadsızlığa etinanın göstərilməsi tərs-mütənasib olan bir reallıqdır*

***Ənənəvi müxalifətin istər yay, istərsə də digər fəsillərdə sərgilədiyi passivlik artıq bu düşərgənin ayaqda dayana bilmək şanslarının tamamilə itirildiyini sübuta yetirib. Əgər nəzərə alsaq ki, önçəki illərdə yalnız yay aylarında fəaliyyət sarıdan aktivlikdən kənar qalan müxalifət, indi həmin fəaliyyətsizliyini bütün fəsillərdə göstərməkdədir.***

Hətta ictimai-siyasi hadisələrin ardıcıl baş verdiyi hallarda belə, ənənəvi müxalifət "liderləri" uzağı bir neçə kəlmə ilə kifayətlənərək, bununla işlərini bitmiş hesab edirlər. Bununla yanaşı, ictimai-siyasi rəydə, artıq belə bir fikir formalaşmağa başlayıb ki, hərgah bu "liderlər" uzun illərdən bəri heç bir siyasi uğur əldə edə bilməyiblərsə, onda onların müddəti başa çatmış hesab edilməlidir.

### Əsas hədəf kimi AXCP, Müsavat kimi partiyalar nəzərdə tutulur və həmin partiyaların "liderlərinin" siyasi ömür cəhətdən həyatlarının başa vurulduğu bldirilir

Yeri gəlmişkən, mövcud vəziyyətlərində, yəni get-gedə olan-qalan elektoratlarını da itirməkdə olan "liderlərin" ara-sıra mediaya, sosial şəbəkələrə çıxıb 2018-ci ildə keçiriləcək prezident seçkiləri barədə iddialar səsləndirmələri düşərgədə az-çox fəaliyyətləri ilə seçilən müxalifət partiyaları tərəfindən gülüşlə qarşılanır. Haqlı olaraq bildirilir ki, bu gün özlərini "ana müxalifət" hesab edən "liderlər" siyasi gündəmdə yeniliklər edə bilmirlərsə, özlərinə uyğun siyasi ab-hava yaratmaqda çətinlik çəkirlərsə, belələrinin siyasi fiqur qismində cəmiyyətdə yer alması mümkünsüzdür.

### AMİP yetkilisi: "Partiyalar istəsə də, istəməsə də ictimaiyyətdə aktivlik yarada bilməzlər"

AMİP-in mərkəzi şurasının üzvü Əli Orucov müxalifətyönlü mediaya açıqlamasında bildirib ki, istər az-çox fəaliyyətləri ilə gündəmdə qalmağı bacaran siyasi təşkilatlar, istərsə də gündəmdə yalnız sosial şəbəkələr vasitəsilə qalan partiyaların özləri də bu məsələlərdə zəiflik göstərirlər. Həmçinin, partiyalar istəsələr belə, ictimai rəydən xal toplamağa nail ola bilməyəcəklər. SİTAT: "Partiyalar istəsə də, istəməsə də ictimaiyyətdə aktivlik yarada bilməzlər. Çünki bunun üçün onların əlində lazım olan rıçaqlar yoxdur. Bunun üçün müstəqil elektron mətbuata, geniş tərkibli, müxtəlif auditoriyalı tədbirlərdə çıxış etmək lazımdır. Təbii ki, bu zaman cəmiyyətlə partiyalar arasında əlaqələr kəsilir".



Göründüyü kimi, AMİP rəsmisi də etiraf edir ki, artıq daha öncələr əldə olmuş rıçaqlar tamamilə itirilib və yenidən əvvəlki mövqelərə sahib olmaq üçün güc toplamaq mümkünsüz görünür. O cümlədən, hətta düşərgə "liderləri" geniş auditoriya qarşısına çıxaraq, bu və ya digər mövzular barədə fikirlərini səsləndirsələr belə, kimsə onların həmin fikirlərinə etina göstərməyəcək. Çünki daha bir fakt "liderlərin" ictimaiyyət tərəfindən etimadsız olaraq qəbul olunmalarıdır. Etimadsızlığa etinanın göstərilməsi tərs-mütənasib olan bir reallıqdır.

### Alternativ cəbhəçi funksioner: "Bnların siyasi ruporları xalq tərəfindən qəbul edilmir"

Alternativ AXCP-nin sədr müavini Məhəmməd Əsədullazadə də, demək olar ki, milli istiqlalçı həmkarı ilə eyni fikri bölüşüb. Onun sözlərinə görə, ictimai rəy köhnə, nimdaş və səmərəsiz müxalifətə inanmır. Çünki köhnə liderlər yeniləri ilə əvəzlənməlidirlər. SİTAT: "...Ölkədə ənənəvi müxalifətin yay susqunluğu davam edir və onlar siyasətlərini sosial şəbəkədə status yazmaqla ortaya qoyurlar". M.Əsədullazadə, birbaşa hədəfi Əli Kərimlinin sədri olduğu AXCP-yə və Cəmil Həsənlinin sözdə rəhbəri olduğu "Milli Şura"ya və Arif Hacılının başqanı olduğu Müsavata tərəf tuşlayıb. Onun sözlərinə görə, bütövlükdə, Müsavat, "Yurd" və "Milli Şura" "liderlərinin" nümayiş etdirdikləri siyasət birlik deyil, düşərgədə parçalanmaya xidmət edir. "Ona görə də bunların siyasi ruporları xalq tərəfindən qəbul edilmir"-deyə alternativ cəbhəçi bildirib.

Nəticə olaraq, faktlar onu göstərir ki, hətta müxalifətin özündə vəziyyət kritik həddə inkişaf edir və bu amil, ümumiyyətlə, radikal, eləcə də, qeyri-radikal müxalifətin siyasi inamsızlığını açığa çıxarmış olur. Məhz bu səbəbdən, ölkədə yeni müxalifətin yaranması üçün belə siyasi abmisiozların aradan qalxması labüdlüyü gerçəkləşməlidir. Hər halda, özləri də belə düşünürlər və bu suala cavab tapmalıdırlar: "müxalifət yenilənməlidir" deyənlər özləri də yenilənə bilərlərmi?

**Rövşən RƏSULOV**

# 2018-ci il iddiaları müxalifəti bir-birinə vurub

*Keçmiş müsavtçılar: "Arif Hacılı diktator başqan olmaqla, partiya daxilində növbəti parçalanmanın əsasını qoyub"*

2018-ci ildə keçirilməsi nəzərdə tutulmuş prezident seçkilərinə, hələ uzun müddət qalsa da, artıq dağıdıcı müxalifət düşərgəsində yeni qarşıdurmalar baş verməkdədir.

Xüsusilə də, uzun illərdir ki, davam edən AXCP-Müsavat savaşı isə, bu gün pik nöqtəsinə çatıb. Ortada olan və reallaşdırıla bilinməyən iddialar buna imkan verməməklə yanaşı, həmçinin, onların aşkar simalarını ifşa edir. Baş verən qarşıdurmalara diqqət yetirsək, görərik ki, bu partiyaların daxilinə bolşevik və menşevik təfəkkürü, artıq o qədər hopub ki, hətta sədrlər kiçik bir etirazlı hal gördükdə, dərhal xoflanır, kürsülərinin əldən veriləcəyindən ehtiyat etməyə başlayırlar. Elə götürək, Müsavat başqanı Arif Hacılını. A.Hacılı sosial şəbəkədə ona qarşı dönük çıxanlara tərif yazanlara qarşı sərt addım atılacağını vurğulayıb. Bu faktın özü partiyadaxili müxalifətçiliyə dözümsüzlüyünü nümayiş etdirir.

Buna baxmayaraq, keçmiş müsavatçılar yenə də Hacılını diktatorluqda ittiham edərək, qeyd edirlər ki, partiyanı "bizim kimi düşünməyən bizdən deyil" prinsipiylə idarə edən diktator başqan, partiya daxilində növbəti parçalanmanın əsasını qoyub. Bu səbəbdən, çox yaxın vaxtlarda partiyadan kütləvi istefaların başlayacağı şübhə doğurmur. Xüsusilə, son günlərdə partiyanın Suraxanı rayon şöbəsindən sədr müavini statusundakı istefalardan biri də reallaşdırılması deyilənlərin məntiqi nəticəsidir.

### *Əli Kərimli ambisioz mövqeli xəyanətkardır*

Sabiq AXCP-çilərin sözlərinə diqqət yetirsək, görərik ki, Müsavat başqanı hədə-qorxusu AXCP-də də baş verməkdədir

Müsavatda yaşananları eynilə cəbhəçilər də yaşayırlar. Ə.Kərimli sonradan həmin keçici sindromu liderlik iddiasında olan digər partiya sədrlərinə də yoluxdurub. Əlbəttə ki, Kərimlinin ambisiyaları və satqınlığı üzündən bir partiya digərini rəqib kimi deyil, düşmən gözündə görür. Bu halda isə, hansısa məqsəd üçün bir yerə toplaşmağa imkan vermir və son günlər həmin vəziyyəti yetərincə müşahidə etmişik. Bu isə, nəticə etibarilə, bir-birilərini çıxdaş etməkdən ötrü başladılmış dava-şavalar - Ə.Kərimli, A.Hacılı və bu ambisiyanın daşıyıcısı olan digər partiyaların fəaliyyətləri müxalifətin sonunu çatdırıb.

Azərbaycan Milli İstiqlal Partiyası siyasi şurasının üzvü Əli Orucov isə müxalifətin bütün seçkilər ərəfəsi belə durum yaşadığını bildirib: "Bu da ondan irəli gəlir ki, müxalifət düşərgəsində bu günə kimi heç bir partiya seçki ilə bağlı nəsə bir addım belə irəli getməyib: "Nəyinsə xatirinə fəaliyyət göstərməyin də heç bir mənası yoxdur. Ona görə də müxalifət seçkilərə hazırlaşmır".

**Rəfiqə HÜSEYNOVA**

# Müxalifət pul qazanmağın yolunu satılmaqda görür

*Teyyub Qənioğlu: "Xariclərdən rəğbət qazanmağın yolu da satqınlıqdan və qanuna zidd hərəkətlərə yol verməkdən keçir"*

***Bu, artıq bir faktdır ki, son 20 ildə müxalifət siyasi məkanda yalnız öz maraqlarının təmin olunması baxımından fəaliyyətini qurub. Məhz adlarını müxalifət qoyan bu qaragüruhçular ölkəmizdə ictimai-siyasi proseslərdə uğur qazana bilməyiblər, ictimai dəstəkdən məhrum olunublar. Xarici məkrli qüvvələrin sifarişlərini yerinə yetirməklə, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa can atan Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı və digər qaragüruhçular, hər dəfə ayrı-ayrı dövlətlərdə xoşagəlməz hadisələr baş verəndə özlərinin varlığını sübut etmək fəallaşır, diqqət mərkəzinə çevrilməyə çalışırlar.***



"Təkamül" partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirdi ki, bu gün heç kəsə sirr deyil ki, xaricdə olan müəyyən qüvvələr öz məkrli siyasətlərini həyata keçirmək üçün ölkə daxilində olan radikal müxalifət düşərgəsini təmsil edən şəxslərdən bir vasitə kimi istifadə edir: "Bunun üçün də həmin qüvvələr ələbaxım funksiyasını yerinə yetirən müxalifəti maliyyələşdirirlər. Dağıdıcı müxalifət təmsilçiləri xarici qüvvələrdən aldıqları vəsaitlərin az bir hissəsini partiyaya xərcləməklə, digər hissəsini isə özlərinin şəxsi mənafeləri üçün sərf edirlər". T.Qənioğlu onu da bildirdi ki, partiyaların qarşısında duran əsas məqsədlərdən biri sivil yolla hakimiyyətə gəlməkdir: "Müxalifət təmsilçiləri də bu reallığı gördükləri halda onda, onlar da əllərində olan maliyyə vəsaitinin şəxsi mənafelərinə xərcləmək yolunu tuturlar. Yəni xalq tərəfindən heç bir dəstəyi yoxdur ki, onlar nə isə edə bilsinlər. Belə olan halda da, müxalifət təmsilçiləri şəxsi maraqlarını partiya maraqlarından üstün tuturlar. Demək olar ki, radikal müxalifət təmsilçilərinin şəxsi maraqlarını partiya maraqlarından üstün tutmaları düzgün bir hal sayıla bilməz. Amma günümüzün reallığı budur".

T.Qənioğlunun sözlərinə görə, müxalifətin dövlətimizin imicinə ləkə vurması, xalqın milli maraqlarına zidd olan hərəkətlərə əl atması satqınlıqdan və xəyanətdən başqa bir şey deyil: "Müxalifət təmsilçiləri ölkənin mənafelərinə zidd fikirlər söyləmək, xaricdəki müəyyən qüvvələrin rəğbətini qazanmaqla maliyyələşmək yolu tutmuşlar. Bu da çox səhv bir yoldur. Müxalifət düşərgəsini təmsil edən şəxslər xaricdə olan qüvvələrə yarınmaqla ölkəsinə, vətəninə və millətinə şər-böhtan atırsa, bu, bağışlanmaz cinayətdir. Müxalifət təmsilçiləri, bir müddət gündəmdə qalmaq üçün, bir çox bədxah hərəkətlərə əl atıblar. Amma yaxşı olardı ki, həmin müxalifətçilər bu cür yollarla, yəni milli maraqlarımıza zidd olan məsələlərlə gündəmə gəlməsinlər. Çünki bu cür hərəkətlərə əl atılması onlara başucalığı gətirməz. Əksinə, bu, onları gözdən salacaq. Təəssüf ki, ölkə daxilində millətinin və xalqının rəğbətini qazana bilməyən qüvvələr yaşamaq üçün xarici maliyyə təşkilatlarının rəğbətini qazanmaq yolu tuturlar. Bu yolda satqınlıqdan və qanuna zidd hərəkətlərə yol verməkdən keçir. Çünki belələri bu cür hərəkət etməsələr, kimdi onları qiymətləndirən? Xaricdəki hər hansı qüvvə milli-vətənpərvər qüvvələri, millətinin və dövlətinin xeyrinə fəaliyyət göstərən qüvvələri heç maliyyələşdirərmi? Əlbəttə ki, yox. Yəni xaricdə olan qüvvələr ölkə daxilində olan millətə və dövlətə zidd fəaliyyət göstərənləri maliyyələşdirir ki, öz istəklərinə nail olsunlar. Amma onların nə etmələrindən asılı olmayaraq, həmin qüvvələr öz istəklərinə heç vaxt çatmayıb və çatmayacaqlar".

**GÜLYANƏ**

# Azərbaycanda mədəniyyətin təbliğində mədəni-maarif ocaqları və bədii-tamaşa təşkilatlarının rolu

***Məlum olduğu kimi, mədəniyyətin təbliğində mədəni müəssisələr bədii-tamaşa təşkilatları, mədəni-maarif ocaqları da mühüm rol oynayır. Mədəniyyətin inkişafında mədəniyyət müəssisələrinin də xüsusi yeri vardır. Bədii-tamaşa təşkilatları və mədəni - maarif ocaqları belə müəssisələrdəndir. Bədii-tamaşa təşkilatlarının aşağıdakı tipləri vardır: teatrlar, konsert-qastrol birlikləri, sirk. Bu təşkilatların vəzifələri peşəkar sənət əsərlərini hazırlayaraq yaymaqdan ibarətdir. Mədəni-maarif müəssisələrinə isə klublar, muzeylər və kitabxanalar daxildir. Bunlar isə aşağıdakı funksiyaları yerinə yetirir:***

1) Mədəni-maarif işi vasitəsilə mənəvi sərvətləri yaymaq;

2) İnsanları müxtəlif formalarda yaradıcılığa cəlb etmək.

Azərbaycan mənəvi mədəniyyətinin-unikal sərvətinin hamının malı olması üçün onu qoruyub-saxlamaq vacibdir. Bununla arxivlər, muzeylər və kitabxanalar kimi mədəniyyət obyektləri məşğul olur. Mədəniyyətin inkişafı ilə bu müəssisələrin əməkdaşlarının yaradıcılıq işi, elmi iş elementləri: tarixi mədəniyyət abidələrinin tədqiq olunması, müəllifliyin müəyyən edilməsi, bərpaçılıq və s. getdikcə daha da çoxalır. Hazırda mənəvi sərvətlərin qorunub-saxlanılmasında texniki vasitələrdən istifadə olunur (çap, üzün çıxarılması). Mənəvi sərvətlərin qorunub-saxlanması yalnız onun fiziki cəhətdən korlanmasının, unudulmasının qarşısını almaq məqsədi daşımır. Hər bir xalq, hər bir nəsil öz mədəniyyətini boş bir səhrada, heç nədən yaratmır. Hər bir mədəniyyət özündən əvvəlki mədəniyyətin əsasında yaradılır.

S.Məmmədova yazır: "Mədəni sərvətlər, ilk növbədə, xalq maarifinin ictimai sistemi vasitəsilə bölüşdürülür və yayılır. Ölkənin, cəmiyyətin mənəvi həyatının səviyyəsi tədris müəssisələrinin sayından, tədrisin keyfiyyətindən, müəllimlərin ixtisasından, geniş xalq kütlələrinin bütün təhsil növlərinə yiyələnmək imkanlarından asılıdır.

Maddi nemətlər kimi, mənəvi istehsal məhsulları və mədəni sərvətlər də insanların istifadəsi üçündür. Lakin mənəvi nemətlər istehlakı maddi nemətlər istehlakından xeyli fərqlənir. Belə ki, maddi nemətlər istehlakı prosesində məhsul aradan çıxır (Qida yeyilir, paltar köhnəlir). Ancaq mənəvi sərvətlərdən daha çox adam faydalanır. Çünki o, öz təbiətinə görə fərdi yiyələnmə obyekti deyil.

Mənəvi sərvətlər istehlakı şəxsiyyətin, sosial qrupun mənəvi tələbatının xarakteri ilə şərtlənir. Bu tələbat isə istehsalın inkişaf səviyyəsindən, ictimai-siyasi quruluşdan, şəxsiyyətin mənsub olduğu sinfin ideologiyasından, mühitdən (sosial-mədəni), həmçinin, adamın özünün fərdi xüsusiyyətindən, onun zövqündən və vərdişlərindən asılıdır. Mənəvi tələbat adamları mövcud mənəvi sərvətləri mənimsəməyə və yenilərini yaratmağa sövq edir".

Mənəvi sərvətlərin istehsalı, qorunması, yayılması və istehlakı üçün cəmiyyətdə sosial təsisatlar müxtəlif mədəniyyət müəssisələri və təşkilatları yaradılır ki, onları funksional əlamətinə görə ayırmaq mümkündür. Bir sıra təsisatlar, yəni nəşriyyat, kino-studiya, yaradıcılıq birlikləri, dərnəklər və s. mənəvi istehsal üçün yaradılır. Digər təsisatlardan, yəni kinoteatrlar, lektoriyalar, konsert birlikləri mədəniyyəti yaymaq üçün istifadə edilir. Azərbaycan mədəniyyəti kinoteatrlarda, videolarda, televiziyalarda geniş təbliğ olunur. Azərbaycan Dövlət Dram Teatrında klassik və müasir milli mədəniyyətlə yanaşı, dünya mədəniyyəti nümunələri, dram əsərləri tamaşaya qoyulur, tamaşaçılara milli və ümumbəşəri dəyərlər aşılanır və xalqımızın mədəni səviyyəsi araşdırılır.

Vaxtilə görkəmli müğənnilərimiz R.Behbudov, Müslüm Maqomayev, Z.Xanlarova və başqaları xaricdə Azərbaycan milli musiqisinin şöhrətini dünya səviyyəsinə yüksəltdilər. Bu gün milli musiqimiz, falklorumuz, klassik və müasir ədəbiyyatımız geniş yayılır.

Azərbaycan mədəniyyəti, həmçinin, insanın evristik məqsədlərinin yerinə yetməsinə: onun yeniliyi dərk etməyin daha məhsuldar formalarının axtarılmasına, yaşadığı həyatın yeni yollarının və metodlarının tapılmasına, insanın təbiətin kortəbii qüvvələri üzərində hökmranlığının güclənməsinə kömək edir. Mədəni tərəqqi obyektiv tarixi qanunauyğunluğun mədəniyyət varisliyinin təsiri səbəbindən baş verir. O, ictimai-iqtisadi formasiyalar dəyişən zaman keçmiş dövrlərin mədəni nailiyyətlərinin qorunub-saxlanmasını, yaradıcılıqla mənimsənilməsini və bunun da əsasında yeni ictimai tələblərə uyğun mədəniyyəti yaranmasmı təmin edir.

Xalqımızda keçmişin mədəni sərvətini bütünlüklə və hərtərəfli mənimsənilməsini tərbiyə etmək vacibdir. Azərbaycan mədəni irsin mənimsənilməsinin müasir mərhələsinin mühüm əlaməti keçmişin mədəni sərvətlərinə obyektiv və yeni münasibətin yaranmasıdır. Belə münasibət göstərilərkən, keçmişin mədəni sərvətləri cansız və toxunulmaz xəzinə kimi qalmır. Qədim mədəniyyət formalarını olduğu kimi qorumaq, təzə formalara qarşı qoymaq niyyətində olunmur.

S.Məmmədovanın fikrincə, ümumiyyətlə, mədəni irsə həmişə və hər yerdə müxtəlif münasibət göstərilir. Mədəni irsin təhlili ilə məşğul olan hər bir şəxs (sənətşünas, rejissor, ifaçı və s.) bir tərəfdən, keçmişin bu və ya digər mədəni hadisəsinin əvvəlki görkəmini və konkret tarixi koloritini maksimum saxlamağa, digər tərəfdən isə, onu nisbətən müasirləşdirməyə çalışır.

(Yəni müasir tamaşaçıya xoş gəlsin).

Mədəni irsin mənimsənilməsində tarixi həqiqətdən uzaqlaşmaq olmaz. Varislik o demək deyildir ki, keçmişdən bizə qalanları kortəbii surətdə götürüb istifadə edək. Varisliyin tənqidi təhlilə, keçmiş mədəni irsdən istifadədə yaradıcı dəyişikliyə ehtiyacı vardır.

Mədəniyyətin inkişafı təhlil olunarkən varisliyin xüsusiyyətləri, forma və xarakteri nəzərə alınmalıdır. Məsələn, varislik daimi və vaxtaşırı xarakterli, məzmunca, yaxud formaca mütərəqqi və mürtəce ola bilər. Tarixi varislik mədəniyyətin inkişafında obyektiv qanunauyğunluq, onun tərəqqisinin əsas şərtlərindəndir.

Azərbaycan cəmiyyətinin mədəni inkişaf vəzifələrinə uyğun gələn mədəniyyətin varislik üslubunun özünü həm ümumsosial səviyyədə, həm də şəxsi səviyyədə göstərməsi mədəniyyəti mənimsəmə prosesində hamının dünyanı dərk etməsinin bütün dərinliyi və zənginliyi ilə əks etdirilməsi, onun daha vacib hesab etdiyi mədəni sərvətlər cəminin mənimsənilməsinə ardıcıl, məqsədyönlü və tam münasibət bəsləmə dərəcəsinin izahı vacibdir. Keçmişin mədəni irsinə varisliyin yetkin uslubunu Azərbaycanın Q.Qarayev, F.Əmirov, A.Məlikov kimi bəstəkarlarının yaradıcılığında aydın görmək olar. Bu bəstəkarlar keçmişimizin musiqi mədəniyyətinin fundamental ideya-bədii ənənələrini inkişaf etdirərək, müasir dinləyiciyə Azərbaycan və dünya klassiklərinin əsərlərinin dərin vətəndaşlıq pafosunu və obrazlı kökünü musiqi vasitəsi ilə çatdırmışlar. Milli məzmun və forma baxımından müasir insanın keçmiş dövrlərin mədəniyyətinə münasibətində əlamətdar hadisə mədəniyyət hadisələrinə qiymət verilməsində demokratizm və çeviklikdir. C.Məmmədovanın qeyd etdiyi kimi, əgər varislik prosesinin inkişaf tempindən danışılırsa, onun genlilik əlamətləri göz önündədir.

Müasir insanın mədəni irsə münasibətinin təkmilləşdirilməsi mədəni sərvətlərin həm şüurlu surətdə, həm də kortəbii mənimsənilməsinin mahiyyətini və xüsusiyyətlərini dərk etmək tələblərini irəli sürür.

Mədəniyyətə kortəbii varislik neqativ nəticələr verir.

Bu, bir tərəfdən, keçmişlə çoxcəhətli əlaqələrin pozulmasına, bir sıra mədəni hadisələr haqqında yaddaşlarda olanların itməsinə gətirib çıxarır, digər tərəfdən, keçmişin mədəni potensialı ilə kortəbii ünsiyyət adamlarda mədəni irsə münasibətdə fetişizm ruhu doğurur. Bu vaxt mədəniyyətin həqiqi dəyərindən asılı olmayaraq, o səcdəyə və sitayiş əşyasına çevrilir.

Mədəni varisliyin idarə olunmasının sərhədlərini genişləndirmək, onu kortəbiilik dairəsindən çıxarmaq, maddi bazasını möhkəmləndirmək, mütəxəssislər hazırlayan müvafiq müəssisələr şəbəkəsi yaratmaq, mədəni sərvətləri və ənənələri qorumaqda ictimaiyyətin rolunu artırmaq hələ də kifayət səviyyədə deyildir.

Bəşəriyyətin indiyə qədər topladığı mədəni irs o qədər böyük və müxtəlifdir ki, onun geniş kütlələr tərəfindən dərk edilməsi üçün mədəni sərvətlərin tirajlanması və yayılmasının yeni forma və metodlarını tapmaq lazımdır.

Azərbaycanda mədəni sərvətləri qorumaq, onu bərpa etmək sahəsində milli qüvvələrin və dövlətin birgə fəaliyyəti, beynəlxalq mədəni mübadilə göstərir ki, mədəni varislikdə insanlar tarixi və etnik xüsusiyyəti nəzərə almalıdırlar.

> Mədəni varisliyin idarə olunmasının sərhədlərini genişləndirmək, onu kortəbiilik dairəsindən çıxarmaq, maddi bazasını möhkəmləndirmək, mütəxəssislər hazırlayan müvafiq müəssisələr şəbəkəsi yaratmaq, mədəni sərvətləri və ənənələri qorumaqda ictimaiyyətin rolunu artırmaq hələ də kifayət səviyyədə deyildir.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 8 avqust

## İdeal selfi üçün proqram hazırlanıb

Kanadanın Vaterloo Universitetinin alimləri ideal selfi çəkməyə kömək edən proqram hazırlayıblar. Bu, istifadəçini kameranı bütün mümkün şəkillərdən ən yaxşısının alınacağı yerdə quraşdırmağa yönəldən alqoritmdir.

AZƏRTAC futurist.ru saytına istinadla xəbər verir ki, alimlər alqoritm üzərində işləyərkən orta statistik insanların rəqəmsal 3D-skanlarını alıblar. Onlar smartfonun virtual kamerasını və kompüter işıqlandırmasını idarə etmək üçün kodları yazaraq yüzlərlə "virtual şəkil" yaradıblar. Bu, kompozisiyanın müxtəlif prinsiplərini, həmçinin sifətin vəziyyətini və ölçülərini, işıqlandırmanın istiqamətini öyrənməyə imkan verib.

Bundan sonra minlərlə insan kraudsorsinq onlayn xidmətinin köməyilə ən yaxşı virtual fotolarını seçiblər. Alimlər səsvermə şablonunun riyazi modelini yaradıblar ki, bu da insanlara daha uğurlu fotolar əldə etməyə kömək edəcək alqoritmi hazırlamağa imkan verib. Daha sonra real istifadəçilər öncə standart kamera proqramının, sonra isə yeni proqramın köməyilə selfi çəkiblər. Alimlər onlayn reytinqlərə əsaslanaraq, belə nəticəyə gəliblər ki, yeni proqram selfini 26 faiz yaxşılaşdırıb.

## Tənhalıq insan üçün ən böyük təhlükədir

Tənhalıq və tərkidünyalıq piylənmədən də böyük təhlükədir. ABŞ-ın Brikheym Yanq Universitetinin psixoloqları belə bir qənaətə gəliblər. Onların fikrincə, həmin amillərin əhaliyə təsiri ilbəil artır və milli problemə çevrilə bilər. Alimlər bu barədə Amerika Psixoloji Assosiasiyasının 125-ci illik konvensiyasında məlumat veriblər. AZƏRTAC xəbər verir ki, tədqiqat barədə press-reliz EurekAlert saytında yerləşdirilib.

Mütəxəssislərin söylədiklərinə görə, başqaları ilə qarşılıqlı münasibət hər kəsin sağlam yaşaması və psixoloji rahatlığı üçün əsas tələbatlardandır. Amerika Pensiyaçılar Assosiasiyası qeyri-hökumət təşkilatının tənhalığın öyrənilməsi ilə əlaqədar apardığı tədqiqatın nəticəsinə görə, yaşı 45-i ötmüş 42,6 milyon amerikalı xroniki tənhalıqdan əziyyət çəkir. 2014-cü il siyahıyaalmasına görə, ölkə əhalisinin dörddəbirindən çoxu tənha yaşayır, yarıdan çoxu isə nikah bağlamayıb.

Alimlər hər biri onlarla tədqiqatın nəticələrini özündə ehtiva edən iki metaanaliz aparıblar. Birinciyə ümumilikdə 300 mindən çox könüllünün iştirak etdiyi 148 elmi araşdırma daxil edilib. Məlum olub ki, möhkəm sosial əlaqələr erkən ölüm riskini 50 faiz azaldır. İkinci metaanalizdə isə Şimali Amerika, Avropa, Asiya və Avstraliyadan 3,4 milyon nəfərin iştirak etdiyi 70 tədqiqatın nəticələri öyrənilib. Alimlərin qənaətə əsasən tərkidünyalıq və ya tənhalıq erkən ölüm riskini, piylənmə də daxil olmaqla, digər amillərdən daha çox artırır. Mütəxəssislər hesab edirlər ki, səhiyyə sistemi sosial əlaqələrin əhalinin sağlamlığına təsirini nəzərə almalıdır. Tənhalığa daha həssas olan pensiyaçıların başqaları ilə ünsiyyətdə ola biləcəyi istirahət evlərinin və parkların tikintisi də zəruridir.

## Boksçularımız beynəlxalq turnirdə beş medal qazanıblar

Sovet İttifaqı Qəhrəmanı Viktor Liventsevin xatirəsinə həsr olunan beynəlxalq boks turnirinə yekun vurulub. Belarusun paytaxtı Minskdə keçirilən yarışda 15 ölkədən 100-dən artıq kişi və qadın boksçu qüvvəsini sınayıb.

AZƏRTAC xəbər verir ki, turnirdə mübarizə aparan Azərbaycan yığması Vətənə beş medalla dönüb. Millimizin heyətində Pərviz Bağırov (69 kq) finaladək irəliləyib və gümüş medalla kifayətlənib. Onun komanda yoldaşı Umud Rustəmov (56 kq) yarışı üçüncü pillədə başa vurub.

Digər üç medalı isə qadın boksçularımız qazanıblar. Həmyerlilərimizdən Anaxanım Ağayeva (51 kq), Məhsəti Həmzəyeva (57 kq) və Şəhla Allahverdiyeva (75 kq) bürünc medala sahib olublar. Qeyd edək ki, Fuad Aslanov turnirdə ölkəmizi hakim kimi təmsil edib.

## Azərbaycanın paracüdo komandaları Avropa çempionatında qızıl medallar qazanıblar




Avqustun 7-də İngiltərənin Valsall şəhərində keçirilən cüdo üzrə Avropa çempionatında Azərbaycanın idman tarixində ilkə imza atılıb.

Azərbaycan Milli Paralimpiya Komitəsindən AZƏRTAC-a bildiriblər ki, ölkəmizin kişilər və qadınlardan ibarət paracüdo üzrə yığmaları çempionatda bütün rəqiblərinə qalib gələrək komanda yarışlarında qızıl medallara sahib olublar. Xatırladaq ki, fərdi yarışlarda idmançılarımız 4 qızıl, 1 gümüş, 2 bürünc medal qazanıblar. Azərbaycan cüdoçularından İlham Zəkiyev, Rövşən Səfərov, Sevda Vəliyeva və Xanım Hüseynova qızıl, Bayram Mustafayev gümüş, Ramil Qasımov və Hüseyn Rəhimli isə bürünc medal əldə edib.

## "Qalatasaray"dan Arda Turan sürprizi




Türkiyənin "Qalatasaray" futbol klubu Super Liqada yeni mövsümün başlanmasına bir həftə qalmış sürpriz transfer etmək istəyir. CNN Türk xəbər verir ki, "sarı-qırmızılar" klubun keçmiş üzvü Arda Turanı mövsümün sonuna kimi icarəyə götürməyi planlaşdırır. Klub rəhbərliyi bu həftə yarımmüdafiəçinin məxsus olduğu İspaniyanın "Barselona" komandası ilə danışıqlar masasına oturacaq. Otuz yaşlı futbolçunun icarəsi üçün 2,5 milyon avro ödənilməsi nəzərdə tutulub. Bundan əlavə, A.Turan illik 4 milyon avro qazanacaq. Transferin baş tutması tamamilə katalonlardan asılıdır. Bununla yanaşı, türkiyəli ulduzun milli komandaya geri dönmək şansının da olduğu bildirilir.

## Useyn Bolt: Artıq getmək vaxtım çatıb




Dünyanın ən sürətli atletlərindən olan Useyn Bolt son yarışını üçüncü sırada başa vurub. "Euronews" xəbər verir ki, 30 yaşlı idmançı Londonda keçirilən Dünya Atletika Çempionatında son yarışına çıxıb. Kişilər arasında 100 metrə qaçışda qızıl medal amerikalı Kastin Qatlinin olub. Lakin hər kəs U.Boltun birinci olacağını düşünürdü. Yarışı qazanan Qatlin rəqibi qarşısında baş əyib. Olimpiadalardan səkkiz dəfə qızıl medalla qayıdan yamaykalı idmançı artıq fiziki cəhətdən yorulduğunu və getmək vaxtının çatdığını deyib: "Qatlin əla rəqibdir, o, birinciliyə layiqdir. Bədənim mənə "artıq vaxtı gəlib" deyir. İlk dəfə bir qaçışdan sonra ayağımda ağrı hiss etdim və bildim ki, artıq getmək vaxtım çatıb".

## "Bavariya" Almaniya superkubokunu qazandı



Almaniyada mövsümün ilk kubokunu "Bayern Münxen" komandası qazanıb. AZƏRTAC verir ki, Almaniya kubokunun sahibi "Borussiya Dortmund"la qarşılaşan Bundesliqa çempionu superkubokun qalibi olub.

Gərgin keçən matç 2-2 hesablı bərabərliklə yekunlaşıb. Dortmundluların heyətində Kristian Pulisiç (11) və Pierre-Emerik Aubameyanq (71) fərqlənib. Münxen təmsilçisinin qollarını isə Robert Levandovski (18) və Lukas Pisçek (88, avtoqol) vurublar. Artırılan əlavə dəqiqələrdə də tərəflərin səyinə baxmayaraq tablodakı rəqəmlər dəyişməyib. Qarşılaşmanın taleyinə penaltilər seriyasında aydınlıq gəlib. Burada daha dəqiq oynayan "Bavariya" 5-4 hesabı ilə qalib gəlib.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500